Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 192 (8215) ÇƏRŞƏNBƏ AXŞAMI, 3 sentyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Böyük Qayıdışdan Milli Qurtuluşa və müasir inkişafa

## Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev 3 sentyabr 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilmişdir

**Böyük tarixi şəxsiyyətlərin həyatı və fəaliyyətinin bütün gedişləri və tarixi məqamları mənsub olduğu xalqın və ölkənin, hətta geniş mənada beynəlxalq münasibətlərin dəyişməsi və inkişaf etdirilməsi, yenidən qurulması ilə üzvi surətdə bağlı olur. Dünya şöhrəti qazanmış, keçmiş SSRİ miqyasında və Azərbaycan Respublikasındakı çoxcəhətli rəhbərlik fəaliyyəti ilə əsl dövlət xadimi kimi qəbul olunmuş, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 3 sentyabr 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməsi Azərbaycan xalqının taleyində böyük siyasi əhəmiyyətə malik olan tarixi hadisədir.**

Hər şeydən əvvəl, onu qeyd etmək lazımdır ki, XX əsrin doxsanıncı illərinin başlanğıcında Heydər Əliyev kimi zəngin təcrübə və yüksək səriştə sahibi olan görkəmli dövlət xadiminin yenidən hakimiyyətə, böyük siyasətə qayıdışı Azərbaycan xalqının taleyi ilə bağlı olan tarixi hadisə kimi mühüm əhəmiyyət kəsb edir. Hadisəyə keçən əsrin səksəninci illərinin sonu və doxsanıncı illərin başlanğıcı dövrünün ictimai-siyasi proseslərinin müstəvisindən baxsaq, xalqımızın və ölkəmizin taleyi üçün tanınmış, təcrübəli və səriştəli Siyasi Liderin nə dərəcədə əhəmiyyətli olduğu qabarıq nəzərə çarpar.

Keçən əsrin səksəninci illərinin ortalarından sonuna qədərki dövrün bir-birini tez-tez əvəz edən kommunist rəhbərləri Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətindən sonrakı dövrün boşluğunu doldurmaq gücündə ola bilməmişdilər. Doxsanıncı illərin əvvəllərində zamanın dalğasında yeni simalar kimi görünən AXC-Müsavat iqtidarının nümayəndələrinin isə nə siyasi təcrübəsi və səriştəsi, nə də normal idarəçilik qabiliyyətləri var idi. Sözün böyük mənasında Azərbaycan ölkəsinin geniş dünyagörüşlü, möhkəm əqidəli, həyatın çətin sınaqlarından çıxmış, ölkəsinə və xalqına bağlı olan güclü dövlət xadiminə ciddi ehtiyacı var idi. Nə kommunist rəhbərlərin arasında, nə də cəbhəçi bəylərin sıralarında mövcud tarixi şəraitdə ölkəyə rəhbərlik edə biləcək, Sovet İttifaqının dağılması ilə əlaqədar xalqı düşdüyü ağır vəziyyətdən çıxaracaq, ölkəni irəli apara biləcək əhəmiyyətli siyasi fiqur görünürdü.

Vəziyyət isə çox mürəkkəb idi. Sovet dövlətinin dağılması nəticəsində digər keçmiş müttəfiq respublikalar kimi, bəzilərindən isə daha çox Azərbaycan Respublikası çoxcəhətli böhranın dərinləşməsi dövrünü yaşamaqda davam edirdi. Xalqda ölkənin gələcəyinə böyük ümidsizlik yaranmışdı. Ara-sıra Azərbaycanın parçalanacağı, regionların müxtəlif ölkələr arasında bölüşdürüləcəyi barədə mülahizələr səslənməkdə idi. Üstəlik də blokada şəraiti ölkənin regionunda vəziyyəti daha da çətinləşdirmişdi. Bütün bunlar az imiş ki, keçən əsrin səksəninci illərinin axırlarından etibarən Azərbaycan iqtidarındakı sol və sağ təmayüllü rəhbərlərin demək olar ki, mütləq əksəriyyəti Naxçıvan Muxtar Respublikasına ögey münasibət bəsləyirdi. Onlardan bəziləri Naxçıvanı "acı bağırsaq kimi kəsib atmaq", bəziləri isə muxtariyyət statusunu ləğv etmək barədə bəyanatlarla çıxış edirdilər. Yaranmış boşluqdan istifadə edən Ermənistan tərəfdən də siyasi-hərbi təzyiqlər qüvvətlənməkdə davam edirdi.

Vəziyyətin bu qədər gərgin olmasına baxmayaraq, Naxçıvanda əhali bütün sahələrdə çətinliklərə müqavimət göstərir, ərazi bütövlüyünü qorumaq üçün əsl mərdliklə lazımi fədakarlıqları, dirənişi nümayiş etdirirdi. Hətta xalq kütlələrinin tələbi ilə Naxçıvan Muxtar Respublikasının Ali Soveti 19 yanvar 1990-cı il tarixdə "Naxçıvan MSSR-də yaranmış ictimai-siyasi vəziyyət haqqında" məsələ müzakirə edərək muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşların həyatı təhlükə qarşısında qaldığından, beynəlxalq Qars müqaviləsinin şərtləri kobud şəkildə pozulduğundan Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının SSRİ-nin tərkibindən çıxaraq özünü müstəqil respublika elan etməsinə dair radikal addım atmalı olmuşdu. Bu, Sovet İttifaqının monolitliyi, dağılmazlığı haqqında mifi sındıran ilk böyük hadisə kimi beynəlxalq aləmdə geniş əks-səda doğurmuşdu. Bundan əvvəl 30-31 dekabr 1989-cu ildə isə muxtar respublikanın əhalisi Ordubaddan Sədərək kəndinədək olan 150 kilometrdən çox ərazidə Sovet-İran sərhəddindəki dirəkləri sökmək və tikanlı məftilləri dağıtmaqla Sovet İttifaqı adlanan dövlətə gözlənilməz ağır zərbə vurmuşdu.

Ardı 2-ci səh.



# İnam ünvanı, ümid yeri

**İlk cümləni yazmaq üçün nəzərlərimi uzun zaman qarşımdakı ağ vərəqlərə zilləyirəm və bir ömür boyu gördüklərimin, eşitdiklərimin, oxuduqlarımın imkan verdiyi qədər insanlığın tarixi keçmişi kino lenti kimi gözlərim önündən ötüb gedir.**

**Bu keçmişə ünvanlayası çox suallar var. Düşünürəm ki, o suallardan biri də budur: "Niyə Yer üzünə qadın peyğəmbər göndərilməyib?!" Həqiqətən, qadın və kişilərin hüquq bərabərliyinin getdikcə daha aktual şəkil aldığı dünyamızda bu sual indi çox maraqlı səslənir.**

Amma milli varlığımızın əsasını təşkil edən qədim epos təfəkkürümüz bu sualın cavabını, zənnimcə, çoxdan - əsrlər əvvəldən verib.

Milli varlığımızın başlanğıc nöqtəsi - "Kitabi-Dədə Qorqud" dastanındakı həqiqətlər onu söyləyir ki, qadının peyğəmbər statusu daşımasına ehtiyac yoxdur.

❖ ❖ ❖

İndiyə qədər dünyaya gəlib getmiş 124 min peyğəmbərin hamısını qadın dünyaya gətirib. Onlara Ana haqqını qadın verib. Ona görə də "Kitabi-Dədə Qorqud" "Ana haqqı - Tanrı haqqı" deyir. Qadını, ananı dünyanın ən müqəddəs məbudu ilə bərabərləşdirir.

"Kitab"da ana südü dünyanın ən möcüzəvi məlhəmidir, bir qadının öz igid həyat yoldaşına sevgisi dünyanın ən fədakar sevgisidir. Hər halda ədəbiyyata azdan-çoxdan bələdliyim qədər, hələ elə bir bədii əsərə rast gəlməmişəm ki, orada qadın öz həyat yoldaşının yaşaması üçün canını əsirgəməsin. Yaxud elə bir əsər də rastıma çıxmayıb ki, orada igid öz qadınını "Bəri gəlgil, başım baxtı, evim taxtı" kimi xoş kəlmələrlə öysün, qadınını başının tacı etsin.

Müqəddəs inancımız islam da "Cənnət anaların ayaqları altındadır" deyə insanlığı analara səcdə qılmağa çağırır.

Bu, Azərbaycan milli təfəkkürünün qadına münasibətidir. Belə kamil düşüncədən gəldiyimizə görə ancaq qürur duymaq olar.

❖ ❖ ❖

Bu təfəkkür fikirlərimdə başqa bir tarixi həqiqətin də düyününü açır. Dünyada qadın hökmdarlar çox olub. Ayrı-ayrı xalqların tarixinin müəyyən dönəmlərində bu xalqlara qadınlar rəhbərlik edib, idarəetmə səlahiyyətləri xanımlarda olub. Amma öz tariximizə nəzər yetirdikdə massaget hökmdarı Tomris anadan (e.ə. 570 - e.ə. 520) başqa ağlıma özgəsi gəlmir. Onun da massagetlərə rəhbərlik etməsi şah həyat yoldaşının vəfatından sonra dövlətin yadellilərin əlinə keçməməsi zərurətindən idi.

Bir də Nizami Gəncəvi qələmində İsgəndər Zülqərneyn kimi dünya fatehinə tarixin ən böyük dərsini vermiş Bərdə hökmdarı Nüşabə...

Azərbaycan qadınını başqa xalqların dövlət quruculuğu proseslərində iştirak etmiş digər qadınlardan fərqləndirən bəlkə elə bu cəhətdir: heç bir yüksək statusa, fərdi iddialarını yerinə yetirmək üçün üstün səlahiyyətlər əldə etməyə çalışmadan ömür-gün yoldaşının köməyində olmaq. Ona dayaq durmaq, milli və dövlətçilik dəyərlərinə sahib çıxmaq.

Ardı 3-cü səh.

# 1 milyon 350 min insanın sevinci

## Prezident İlham Əliyevin ikinci sosial paketi çərçivəsində minimum əməkhaqqı üzrə 950 min, digər sahələr üzrə isə 400 min nəfərin maaşı artdı




"Biz ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirə bildik və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir".

Azərbaycanın sosial sahəyə çox böyük diqqət göstərən ölkə olduğunu dəfələrlə vurğulayan Prezident İlham Əliyevin bu fikirləri bir daha təsdiqləyir ki, dövlət siyasətinin mərkəzində vətəndaş rifahının təminatı dayanır və bu prinsip iqtisadi dividendlərin ilk növbədə əhalinin rifahına yönəldilməsinə, sosial müdafiənin gücləndirilməsi istiqamətində ardıcıl addımların atılmasına xidmət edir.

Dövlət başçısının ilin əvvəlindən başlayaraq böyük sosial paket çərçivəsində imzaladığı fərman və sərəncamlarda deyilənlərin sübutudur. 2003-cü ildən ötən dövrdə ölkədə əməkhaqlarının 7,5 dəfə, pensiyaların 10 dəfədən çox, həssas qruplara yönələn müavinət və təqaüdlərin dəfələrlə artırılması, yoxsulluğun 5 faizə enməsi də bunu göstərir.

2019-cu ilin sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacağını bəyan edən Prezidentin cari il ərzində təqdim etdiyi iki sosial paket bu siyasətin yüksək səviyyədə reallaşmasını, ölkədə sosial inkişaf, sosial rifahın yüksəldilməsi istiqamətində bir-birinin ardınca inqilabi xarakterli addımların atılmasını təmin edib. Bu ilin ilk aylarında təqdim edilən birinci sosial islahatlar paketi nəticəsində minimum əməkhaqqı martın 1-dən 40 faizədək artırılaraq 130 manatdan 180, pensiyanın minimum məbləği isə 40 faizədək artırılaraq 116 manatdan 160 manata çatdırılıb. Bu gün həmin artımlardan 830 min insan yararlanır. Həmçinin aprelin 1-dən 14 kateqoriyaya aid şəxslər üzrə sosial müavinətlər, 9 kateqoriyaya aid şəxslər üzrə isə Prezidentin aylıq təqaüdlərinin məbləği orta hesabla 100 faiz artırılıb.

Həmçinin sosial təminat sisteminin əhatə dairəsi daha da genişləndirilib, iki yeni təqaüd növü - sağlamlıq imkanları məhdud uşaqlara və I dərəcə əlilliyi olan şəxslərə qulluq edənlərə Prezidentin aylıq təqaüdü təsis olunub. Habelə aylıq sosial müavinət alan I dərəcə əlilliyi olan şəxslər üçün Prezidentin aylıq təqaüdü pensiya alan I dərəcə əlilliyi olan şəxslərə də şamil edilib. Sayı 80 minədək olan müharibə veteranlarına aylıq təqaüdlər təsis olunub. Sosial müavinət və təqaüd artımları, təsis olunan yeni təqaüdlər 300 mini əlilliyi olan şəxslərdən ibarət 600 minədək vətəndaşın rifahını yaxşılaşdırıb.

Bunlardan əlavə, məcburi köçkünlərin aylıq müavinəti 50 faiz artırılıb, 800 min vətəndaşın problemli kreditləri həll olunub, tələbələrin təqaüdlərində əhəmiyyətli artımlar edilib.

İkinci sosial paketə əsasən minimum əməkhaqqı 180 manatdan 250 manata yüksəlib. Bunun tərkib hissəsi kimi, minimum əmək haqqının və dövlət sektorunda işləyənlərin əməkhaqlarının artımı ümumən 1 milyon 350 min insanın əməkhaqqı gəlirlərinin əhəmiyyətli şəkildə artması ilə nəticələnib.

Ardı 4-cü səh.

# Məşğulluğun təminatı sosial müdafiənin ilkin və əsas şərtidir

## İlin 6 ayında ölkədə 92 min yeni iş yeri açılıb

Həyata keçirilən sosial islahatlar çoxşaxəlidir. Buraya əməkhaqları və pensiyaların, sosial müavinətlərin, həmçinin müxtəlif kateqoriyadan olan təqaüdlərin artırılması daxildir. Bununla yanaşı, aparılan sosial siyasətin əsas məqsədi əməkqabiliyyətli əhalinin işlə təmin olunmasıdır.



İşləyən hər bir vətəndaş özünün sosial rifahını yaxşılaşdırmağa qadirdir. Beləliklə, vətəndaş nəinki dövlətdən müxtəlif müavinətlər alır, həm də dövlət büdcəsinə və sosial müdafiə fonduna ödənişlər etməklə ümumi inkişafa da töhfə verir.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin birinci yarısında ölkədə 92 min yeni iş yeri açılıb. Həmin dövrdə iş yerlərinin 28,9 faizi qeyri-dövlət sektorunda yaradılıb. Bu da ölkədə sahibkarlığın inkişafından xəbər verir. Həmin dövrdə açılan yeni iş yerlərinin 43,8 faizi təzə yaradılmış, 28,5 faizi mövcud, 0,3 faizi fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda, 27,4 faizi isə digər tədbirlər üzrə reallaşmışdır.

Hesabat dövründə 5,6 min iş yeri bağlanıb. Bağlanan iş yerlərinin 41,3 faizi müəssisə və təşkilatların fəaliyyətinin dayandırılması, 58,7 faizi isə fəaliyyət göstərən müəssisə və təşkilatlarda aparılan ixtisarlarla əlaqədar olub. Müsbət hal odur ki, yeni yaradılan iş yerləri bağlanan iş yerlərindən dəfələrlə çoxdur.

Ardı 4-cü səh.

# Paşinyan Ermənistanı dilənçi dövlətə çevirir

## İşğalçı ölkəni qarşıdakı dövrdə böyük demoqrafik problemlər gözləyir

Hakimiyyətə gəlməzdən öncə hökumətin əhaliyə verdiyi əsas vədlərdən biri sosial-iqtisadi problemlərin həlli, yeni iş yerlərinin yaradılması ilə bağlı idi. Amma son vəziyyətin təhlili göstərir ki, iqtidar nəinki yeni iş yerləri açır, əksinə, olanları da bağlayır.

Elə bu da Ermənistanda kütləvi narazılıq yaradır. Ölkədə bu səbəbdən başlamış yeni çoxsaylı etiraz aksiyaları gərgin vəziyyətin bundan sonra da davam edəcəyini göstərir.

Yeni iqtidar hakimiyyətə gəldikdən sonra hökumət diplomatik korpusda genişmiqyaslı ixtisar aparmağa başladı. Səfirliklərdəki əməkdaşların 30 faizi işdən çıxarıldı. Baş nazir onları Ermənistan iqtisadiyyatı üçün heç bir iş görməməkdə, ölkəyə investisiya cəlb etməməkdə və başqa dövlətlərlə iqtisadi əlaqələri inkişaf etdirməməkdə ittiham etmişdi.

Bu günlərdə Ermənistanın digər ölkələrdə akkreditə olunmuş səfir və konsulluq işçilərini illik toplantı adı altında Yerevanda qəbul edən Paşinyan onları növbəti dəfə sərt tənqid edib. Həmin toplantıda Paşinyan Ermənistanın xaricdəki səfir və konsullarına xəbərdarlıq da edib: ölkəyə xarici sərmayə cəlb etməyəcəyiniz halda hamınız xaricdəki şirin və qayğısız diplomatik həyatınızdan məhrum ediləcəksiniz.

Ardı 5-ci səh.



# Böyük Qayıdışdan Milli Qurtuluşa və müasir inkişafa

## Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev 3 sentyabr 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilmişdir

Əvvəli 1-ci səh.

Bunların əvəzində həm mərkəzi hökumət, həm də mərkəzin diktəsi ilə Azərbaycanın yerli hakimiyyət orqanları Naxçıvan camaatına və muxtar respublikanın hakimiyyət orqanlarına sərt təzyiqlər göstərirdi. Kreml rəhbərliyi Ermənistan ordusuna dəstək verməklə Naxçıvana qarşı həmlələri genişləndirirdi. Bu cür çətin, mürəkkəb və məsuliyyətli məqamda Heydər Əliyev kimi böyük və zəngin həyat məktəbi keçmiş, təcrübəli dövlət xadiminin Azərbaycana qayıdışı, taleyin hökmü ilə 22 iyul 1990-cı ildə Naxçıvana gəlməsi, həmin ilin 30 sentyabrında Nehrəm kəndindən Azərbaycan Respublikasının Ali Sovetinə və M.F.Axundov adına Naxçıvan şəhər seçki dairəsindən Muxtar Respublikanın Ali Məclisinə deputat seçilməsi geniş mənada xalq arasında ölkənin gələcəyinə ümid qığılcımları yaratmışdı. Doğrudur, Heydər Əliyev Bakıda rəsmi dairələr tərəfindən arzuolunmaz şəxs kimi qəbul edilmiş və o, dar məqamda Naxçıvandakı ata-baba ocağına üz tutmağa məcbur olmuşdu. Azərbaycanın hər tərəfindən Heydər Əliyevin Naxçıvan şəhərindəki ortabab səviyyəyə malik, təmirsiz ata ocağına ölkə vətəndaşlarının axını, bu böyük tarixi şəxsiyyətlə olan qeyri-adi, isti, doğma münasibəti ifadə edən görüşlər, ünvanına ölkənin müxtəlif regionlarından göndərilən ümid dolu məktublar və teleqramlar Ulu Öndərə bəslənilən ümumxalq sevgisini və inamını qabarıq şəkildə ifadə edirdi.

Bu mənada Heydər Əliyevin 3 sentyabr 1991-ci ildə xalqın tələbi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməsi Azərbaycan miqyasında böyük rəğbətlə qarşılanan əhəmiyyətli siyasi hadisə idi. Artıq xalqımız əmin idi ki, ən azı Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası bundan sonra daha heç vaxt düşmən caynağına keçə bilməz. Bu hadisə Dağlıq Qarabağ ətrafında torpaqların itirilməsi prosesinin tez-tez müşahidə olunduğu ağır bir vaxtda xalqda ölkənin ərazi bütövlüyünün bərpa olunacağına da ümid yaratmışdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən iclaslarında ölkənin müxtəlif bölgələrindən gəlmiş rəsmi qurumların nümayəndələrinin, haqları tapdanmış sadə, zəhmətkeş insanların iştirak edib, özlərinin mövcud vəziyyətləri barəsində dəqiq məlumatlar verərək, çıxış yolları barədə məsləhətlər almaları, dəstək görmələri Ali Məclisi Azərbaycan xalqının ümid qapısına çevirmişdi. Bütövlükdə isə görkəmli dövlət xadimi Heydər Əliyev ölkənin və xalqın ümid çırağı idi. Naxçıvanda yaşayıb-işlədiyi illərdə Heydər Əliyevin iş otağında yanan sadə çıraqdan bütün Azərbaycana işıq düşürdü.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev 3 sentyabr 1991-ci il tarixində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında bu ali dövlət orqanının sədri vəzifəsinə seçilmişdi. Fövqəladə sessiyanın çağrılması zərurəti haradan, nədən doğmuşdu? Əvvəla, 1991-ci ilin avqust ayında SSRİ hökumətində Mixail Qorbaçov iqtidarına qarşı dövlət çevrilişi cəhdi baş vermişdi. Azərbaycan Kommunist Partiyasının rəhbərliyi Sovetlər İttifaqında özünü müvəqqəti, yaxud keçid hökuməti kimi elan etmiş qısamüddətli Fövqəladə Vəziyyət üzrə Dövlət Komitəsinin fəaliyyətinə müsbət münasibət ifadə etdikdən az sonra həmin qurumun dağılması ilə mürəkkəb vəziyyətə düşmüşdü. Bundan başqa, Sovet İttifaqı Kommunist Partiyasının dağılmasına baxmayaraq, Azərbaycanda hələ də bu partiyanı saxlamaq üçün edilən cəhdlər, atılan addımlar ölkə miqyasında, o cümlədən Naxçıvan Muxtar Respublikasında birmənalı qarşılanmırdı. Çünki Naxçıvan Muxtar Respublikasının Ali Məclisi hələ 1991-ci ilin 14 yanvarında keçirilən sessiyasında Azərbaycan rəhbərliyinin iradəsindən kənarda və ondan asılı olmayaraq Mixail Qorbaçov tərəfindən elan olunmuş yeni İttifaq müqaviləsinin qəbul edilməsinin yolverilməzliyi haqqında qərar qəbul etmişdi.

Bundan başqa, xalq deputatı Heydər Əliyevin böyük uzaqgörənliyi sayəsində Ali Məclisin 26 avqust 1991-ci il tarixli sessiyasında Azərbaycan Kommunist Partiyasının Naxçıvan Vilayət Təşkilatını buraxmaq məsələləri də müzakirəyə çıxarılaraq müsbət rəy qazanmışdı. Faktiki olaraq 1991-ci ilin əvvəllərində Naxçıvan Muxtar Respublikasında sovet hakimiyyəti yox idi. Bir qədər əvvəl Naxçıvan MR Ali Məclisinin görkəmli dövlət xadimi Heydər Əliyevin sədrliyi ilə keçirilən 17 noyabr 1990-cı il tarixli sessiyası Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişərək bundan sonra Naxçıvan Muxtar Respublikası adlandırılmasını qərarlaşdırmışdı. SSRİ hökumətinin hələ fəaliyyətdə olduğu dövrdə Heydər Əliyevin sarsılmaz siyasi iradəsinin və böyük uzaqgörənliyinin nəticəsində Naxçıvan MSSR-in adından "Sovet Sosialist" sözlərinin çıxarılması, Naxçıvan MSSR Ali Sovetinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi adlandırılması sadəcə redaktə xarakterli düzəliş deyildi. Bu, dünyada Sovet İttifaqı kimi tanınan, siyasi sistemini Sovetlər üstündə quran möhtəşəm bir ölkənin siyasi strukturunda dəyişiklik edilməsi və əslində, tam mənası və məntiqi ilə de-fakto SSRİ-nin tərkibindən çıxmaq, ən azı isə bu dövlətin çərçivəsində müstəqil dövlət qurumu yaratmaq demək idi.

Bundan başqa, Naxçıvan MR Ali Sovetinin 17 noyabr 1990-cı il sessiyasında Azərbaycanın dövlət rəmzi kimi Xalq Cümhuriyyəti dövründə qəbul edilmiş üçrəngli bayrağın Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul edilməsi barədə yekdilliklə qərar qəbul edilmiş və sessiyanın iclasına sədrlik edən Heydər Əliyevin təşəbbüsü ilə həmin milli mahiyyət daşıyan Dövlət bayrağı Ali Məclisin binası üzərində dalğalanmağa başlamışdı. Bütün bunlar yalnız və yalnız Naxçıvan MR Ali Məclisinin sessiyasına sədrlik edən Heydər Əliyevin həm böyük siyasi iradəsinin, yüksək azərbaycançılıq idealının, qeyri-adi cəsarətinin və uzaqgörənliyinin sayəsində həyata keçirilə bilmişdi. SSRİ adlanan dövlətin bütün müttəfiq qurumlarında demokratik islahatlar adı altında dağılma prosesi getsə də, o dövrə qədər Sovetlər İttifaqının heç bir respublikasında Naxçıvanda atılan addımlara yaxın bir hadisə baş verməmişdi.

Görkəmli dövlət xadimi Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan MR Ali Məclisinin 17 noyabr 1991-ci il tarixli sessiyası Sovet dövlətinin dağılmasının birinci paroludur!

Bu, otuz beş il dövlət hakimiyyətində olmuş böyük siyasətçi Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı böyük tarixi xidmətidir!

Heydər Əliyev, sözün əsl mənasında, Azərbaycan milli dövlətçiliyinin əfsanəsidir. Naxçıvan MR Ali Məclisinin 17 noyabr 1991-ci il tarixli sessiyasına sədrlik etmək - Azərbaycanda müstəqil dövlətçilik uğrunda mübarizəyə rəhbərlik etmək demək idi!

Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanın milli istiqlalının rəhbəri missiyasını şərəflə həyata keçirmiş tarixi şəxsiyyətdir!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli fövqəladə sessiyasının gündəliyinə geniş mənada həmin tarixi mərhələnin aktual məsələləri, xüsusən də ölkə miqyaslı, o cümlədən, Naxçıvan Muxtar Respublikası ilə əlaqədar zəruri məsələlər daxil edilmişdi. Fövqəladə sessiya ölkədə Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsinə münasibət bildirməli idi. Çünki həmin dövrdəki şəraitdə antidemokratik şəkildə alternativsiz əsasda Prezident seçkilərinin keçirilməsi mərkəzin diktəsi ilə ölkədə gedən demokratik proseslərin ləngidilməsinə, müstəqillik uğrunda azadlıq mübarizəsinin boğulmasına hesablanmış tədbir idi. Bu, doğrudan da münasibət tələb edən məsələ idi.

Eyni zamanda gündəliyə daxil edilmiş Azərbaycan Kommunist Partiyası Təşkilatının fəaliyyətini davam etdirib-etdirməməsi məsələsi də cəsarətli münasibət tələb edirdi. Hətta gündəlikdə öz əksini tapmış vilayət partiya təşkilatının əmlakının inventarizasiyasının aparılması üçün komissiyanın yaradılması məsələsinin həllini arzu etməyən bəzi qüvvələr də var idi. Gündəlikdə nəzərdə tutulan məsələlərin həllinə təsir göstərmək Azərbaycanda müstəqil dövlətçilik prosesinin dərinləşdirilməsinə və sürətləndirilməsinə xidmət edirdi. Ancaq həmin məsələlərin müsbət həlli Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında bu ali hakimiyyət orqanının sədri seçiləcək şəxsin siyasi iradəsindən, cəsarət və uzaqgörənliyindən çox asılı idi. Buna görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli sessiyasının həll edəcəyi ən əsas vəzifə təşkilati məsələ idi.

Naxçıvan Muxtar Respublikasının bütün əhalisi Ali Məclisin Sədri vəzifəsinə görkəmli dövlət xadimi, xalqının sədaqətli rəhbəri Heydər Əliyevin seçilməsini qətiyyətlə tələb edirdi. Həmin gün Ali Məclisin binası qarşısına toplanmış minlərlə insan Heydər Əliyevin seçilməsini tələb edən bəyanatlarla çıxış edirdi. Lakin sessiyanın keçirilməsinə qədərki mərhələdə Azərbaycan Respublikası Ali Sovetinin deputatı, Muxtar Respublika Ali Məclisinin üzvü kimi ölkədə, o cümlədən regionda gedən ictimai-siyasi proseslərdə öz sözünü deyən, cəmiyyət həyatının demokratikləşdirilməsinə ciddi təsir göstərən, xüsusən Naxçıvanın ərazi bütövlüyünün qorunub saxlanılması üçün xalqın birliyinə nail olmuş Heydər Əliyev heç bir rəsmi dövlət vəzifəsi daşımaq niyyətində olmadığını dəfələrlə bildirmişdi.

Naxçıvan MR Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli sessiyasının iclasında da o, dörd dəfə çıxış edərək namizədliyini irəli sürənlərə minnətdarlıq duyğularını ifadə etməklə yanaşı, böyük təkidlə bu məsələnin səsə qoyulmamasını xahiş etmişdir. HeydərƏliyevşünaslıqda bu məsələ barədə dəfələrlə yazılmasına baxmayaraq, görkəmli dövlət xadiminin həmin iclasda namizədliyinin səsə qoyulmaması üçün etdiyi çıxışların mətni mətbuatda öz əksini tapmamışdır. "Şərq qapısı" qəzetinin 4 sentyabr 1991-ci il tarixli sayında getmiş Naxçıvan MR Ali Məclisinin sessiyası barədə rəsmi məlumatdakı Heydər Əliyevin dörd dəfə çıxış etməsinə dair iki cümlədən ibarət informasiya sonrakı dövrün elmi-publisist materiallarında olduğu kimi təkrar edilmişdir.

Yalnız aradan on səkkiz il keçəndən sonra, 2009-cu ildə təcrübəli jurnalist Mirşahinin ssenarisi və təşkilatçılığı ilə çəkilmiş "Görünməmiş Əliyev" adlı sənədli filmdə Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövrünə aid bir sıra naməlum materialları, o cümlədən Ulu Öndərin 3 sentyabr 1991-ci il tarixdə Naxçıvan MR Ali Məclisinin sessiyasındakı çıxışlarının videolenti ictimaiyyətə təqdim edilmişdir. İlk dəfə səsləndirilən tarixi əhəmiyyətə malik həmin çıxışlar Heydər Əliyev dühasını daha dərindən anlamaq, bu görkəmli şəxsiyyətin böyüklüyünün miqyasını bütün aydınlığı ilə dərk etmək üçün mühüm siyasi əhəmiyyətə malikdir. Vaxtilə Naxçıvanda fotoqraf kimi fəaliyyət göstərmiş və dövrün ictimai-siyasi proseslərində iştirak etmiş Oqtay Daşoğuzun şəxsi videokamerası ilə lentə alınmış həmin məqamlar nadir tarixi materialdır. Bu qiymətli videolent Heydər Əliyevin tərcümeyi-halını və siyasi baxışlarının bir çox məqamlarını yenidən öyrənib dəyərləndirməyə imkan verir.

Əvvəla, həmin nadir videolent bir daha təsdiq edir ki, Heydər Əliyev Kremlin təzyiqləri və təqiblərindən qurtararaq Azərbaycana gələrkən həqiqətən də hakimiyyətə qayıtmaq məqsədində olmamışdır. Ümummilli Lider Heydər Əliyev çoxsaylı çıxışlarında bu barədə dönə-dönə rəsmi açıqlamalar versə də mövcud iqtidarlar buna inamsız yanaşma nümayiş etdirmişlər. Buna görə də Heydər Əliyev Moskvada olduğu kimi, bir müddət öz ölkəsində də müəyyən dairələrin təzyiqləri və təqibləri ilə üzləşməli olmuşdu. 3 sentyabr 1991-ci il tarixli çıxışı göstərdi ki, o zaman Heydər Əliyevin hakimiyyətə gəlmək üçün Azərbaycana qayıtdığını düşünən qüvvələr nə qədər böyük səhv edirmişlər.

Vaxtilə Heydər Əliyev bu məsələyə aydınlıq gətirmək üçün çıxışlarından birində demişdi: *"Mən hələ keçən il (yəni - 1990-cı ildə - İ.H.) Moskvadan Azərbaycana gələrkən jurnalistlərə verdiyim müsahibələrdə və görüşlərdə, bu ilin əvvəlində Azərbaycan Ali Sovetinin sessiyasında çıxış edərkən və nəhayət, son sessiyada bildirmişdim ki, Azərbaycana hakimiyyətə qayıtmaq üçün gəlməmişəm. Mən ancaq Azərbaycanın bu ağır dövründə, çətin vaxtında xalqıma kömək etmək, xidmət etmək üçün gəlmişəm. Mənə bir neçə dəfə Moskvada, elə burada da sual verilmişdi ki, bəs siz öz köməyinizi nədə görürsünüz? Cavab vermişdim ki, mən xalqımın hər bir tapşırığını yerinə yetirməyə hazıram".*

Naxçıvan MR Ali Məclisinin 3 sentyabr 2011-ci il tarixli sessiyasındakı qısa, lakin tarixi çıxışları Heydər Əliyevin həyatının yenidən siyasi hakimiyyətə qayıtmaqla bağlı məqamlarını açıq-aydın şəkildə nəzərə çarpdırır. İndiyədək heç bir mənbədə çap olunmadığını nəzərə alaraq, həm də məsələyə tam aydınlıq gətirmək məqsədilə bu çıxışların mətnini olduğu kimi oxuculara və geniş elmi ictimaiyyətin diqqətinə təqdim etməyi əhəmiyyətli hesab edirəm.

Görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli fövqəladə sessiyasında Ali Məclisin Sədri vəzifəsinə namizədliyi irəli sürüldükdə etdiyi çıxışlar:

**Birinci çıxış:** "Heç bir hakimiyyətə mən gəlmək istəmirəm. Blok təklif eliyib ki, Qafar Məmmədov seçilsin. Mən də təklif edirəm ki, o seçilsin".

**İkinci çıxış:** "Mən öz prinsiplərimə sadiq qalıram. Mən heç bir vəzifə daşımaq istəmirəm. Ona görə xahiş edirəm, mənim namizədliyimi müzakirəyə qoymayasınız. Demokratik blokdan hazırlanmış namizəd vardır. Qafar müəllim... Mən o namizədi, Qafar müəllimin namizədliyini müdafiə edirəm".

**Üçüncü çıxış:** "Hörmətli millət vəkilləri!

Mən ikinci dəfə (halbuki bu üçüncü çıxışdır - İ.H.) çıxış edirəm. Xahiş edirəm, məni düzgün başa düşəsiniz. Və bilin ki, bu, mənim tərəfimdən tamamilə qətiyyətlə deyilən sözdür. Mən necə bir azərbaycanlı kimi, necə bir Naxçıvan əhli kimi çiynimə avtomat salıb, bax, bu dağlarda gedib, Naxçıvan torpağını qorumağa hazıram. Naxçıvan Ali Məclisinin hər bir tapşırığını yerinə yetirməyə hazıram. Azərbaycan xalqının yolunda, onun azadlığı yolunda, Naxçıvanın gələcək inkişafı yolunda canımı qurban verməyə hazıram. Ancaq mən vəzifə tutmaq istəmirəm. Xahiş edirəm, bunu düzgün başa düşəsiniz. Mənim üzərimə başqa nə vəzifə, tapşırıq verəcəksinizsə, mən hamısına hazıram. Yenə də deyirəm, mən buradan çıxıb, avtomatı çiynimə salıb, gedib dağlarda Naxçıvanı qorumağa hazıram. Buna təcrübəm də var, hələ ki, gücüm də var. Ancaq xahiş edirəm ki, bu sözlərimi səmimi söz kimi qəbul edəsiniz, məni başa düşəsiniz və xahiş edirəm ki, bu məsələni müzakirə etməyəsiniz".

Nəhayət, Heydər Əliyev **dördüncü dəfə** rəsmi olaraq kürsüdən bəyan edir: "Mən Sizin hamınıza minnətdaram. Və bir daha xahiş edirəm, fikirləşin, tarixi məsələdir, fikirləşin, fikirləşin, bir də tənəffüs edin, fikirləşin, bir də götür-qoy eləyin. Mən xahiş edirəm, mənim xahişimi siz ödəyəsiniz. Mən xahiş edirəm, mən xahiş edirəm, məni düzgün başa düşün. Mən sizin hamınıza minnətdaram, çox böyük ehtiram göstərirəm. Məni bağışlayın. Ancaq bir də xahiş edirəm..."

**İCLAS ZALINDAN SƏS:** "Yetmiş nəfər deputata qarşı çıxış edirsiniz".

Hazırda bəzi iştirakçıların həyatda yaşadığı, bəzilərinin isə vəzifədə olduğu həmin deputatların iştirakı ilə baş vermiş bu tarixi hadisə bir daha göstərir ki, Heydər Əliyevin milli dövlətçilik idealları onun üçün hər hansı rəsmi dövlət vəzifəsi tutmaqdan qat-qat üstün olmuşdur.

Beləliklə, xalqın və Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının təkidi ilə Heydər Əliyev ölkə və region üçün fövqəladə şəraitdə və fövqəladə olaraq çağırılması zəruri sayılmış sessiyada bu ali dövlət qurumunun rəhbəri seçilməsinə razılıq verməli olmuşdu. Bu, Naxçıvan Muxtar Respublika Ali Məclisinin bütün tarixi ərzində keçirilmiş ən uzunmüddətli sessiya idi. Belə ki, Naxçıvan şəhərində 3 sentyabr 1991-ci il tarixdə öz işinə başlayan sessiyanın iclasları 4 sentyabr, 5-6 və 7 sentyabrda 5 gün ərzində davam etdirilmiş, ölkə səviyyəsində və region üçün əhəmiyyətli olan məsələlər geniş müzakirə edilərək müvafiq qərarlar qəbul olunmuşdur.

Gündəlikdə duran məsələlərə uyğun olaraq Naxçıvan MR Ali Məclisinin sessiyası yaranmış tarixi şəraitdə alternativsiz namizəd irəli sürüldüyünü, hələlik ölkədə çoxpartiyalı sistemin formalaşmadığını, Kommunist Partiyasının süquta uğradığını, seçki komissiyası və məntəqələri üzvlərinin partokratiya nümayəndələrinin sifarişi ilə təyin olunduğunu nəzərə almaqla Azərbaycan Respublikasının Prezidentinin seçilməsi üçün 8 sentyabr 1991-ci il tarixə təyin edilmiş seçkilərin Naxçıvan MR ərazisində keçirilməsinin dayandırılmasına dair qərar qəbul etmişdir. Eyni zamanda 3 sentyabr 1991-ci il sessiyası "Azərbaycan Kommunist Partiyasının və onun strukturlarının fəaliyyətinə münasibət haqqında" məsələ müzakirə edərək, Azərbaycan Respublikasının Ali Sovetindən xahiş edilmişdir ki, Sovet İttifaqı Kommunist Partiyası, Siyasi Büro, Mərkəzi Komitə dağıldığı üçün respublikada da bu siyasi-təşkilati qurumun fəaliyyəti dayandırılsın. Bundan başqa, sessiyada Naxçıvan MR-də partiya təşkilatlarının əmlakının milliləşdirilməsini təmin etmək üçün deputat komissiyasının yaradılmasına da qərar verilmişdir.

Bunlar Azərbaycanda tarixi gedişatın axarının, istiqamətinin dəyişdirilməsinə, müstəqil dövlətçilik uğrunda mübarizəyə böyük təkan verən tarixi qərarlardır. Bu qərarların mətninin sonunda görkəmli dövlət xadimi, böyük şəxsiyyət Heydər Əliyevin imzasının olması sadəcə həmin tarixi günün faktı olaraq qalmır. Bu - xalqın böyük arzusu və tələbi ilə dünya miqyaslı siyasətçi Heydər Əliyevin böyük siyasətə yenidən qayıdışının həlledici mərhələsi idi. Bu - Azərbaycanda tarixi gedişatın əsaslı dönüş məqamı idi.

Naxçıvan MR Ali Məclisinin Sədri vəzifəsinə seçilməmişdən 46 gün əvvəl, yəni 19 iyul 1991-ci ildə rəsmi müraciəti əsasında Sovet İttifaqı Kommunist Partiyasının sıralarından çıxmış Heydər Əliyev ölkə tarixində ilk dəfə olaraq bitərəf, partiyasız, müstəqil deputat kimi ali hakimiyyət orqanının rəhbəri vəzifəsinə seçilmişdi. Və yenə də görkəmli dövlət xadimi Heydər Əliyevin Sədri olduğu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin timsalında Azərbaycanın o vaxta qədərki tarixində birinci dəfə idi ki, üzərində Kommunist Partiyasının nəzarəti olmayan ali dövlət qurumu fəaliyyətə başlamışdı. Siyasi gedişatın dönüşünü şərtləndirən bu tarixi məqamlar ölkəmizi müstəqil dövlətçiliyə aparan çətin və keşməkeşli yollara işıq salan, ümummilli prosesin hərəkətverici qüvvəsinə çevrilən hadisələrdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü hərbi-siyasi tədbirlər sayəsində Sovet ordusu hissələri dinc yolla muxtar respublikanın ərazisindən çıxarıldı. Ölkənin bu regionunun xarici ölkələrlə olan sərhədlərini Naxçıvanda yaradılmış milli ordunun əsgərləri qorumaq şərəfi qazandılar. Həmin dövrdə Heydər Əliyevin həyata keçirdiyi genişmiqyaslı müdafiə tədbirləri nəticəsində Naxçıvan Muxtar Respublikası kənardan böyük dəstək alan Ermənistanın işğalından xilas edilmişdir. Dünya Azərbaycanlılarının Həmrəylik Gününün dövlət səviyyəsində qeyd edilməsi haqqındakı 16 dekabr 1991-ci il tarixli dərin məzmunlu qərara da Heydər Əliyev imza atmışdır. Ali Məclisin Sədri Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə və İran İslam Respublikasına tarixi səfərləri, apardığı danışıqlar regionda blokada şəraitinin yaratdığı böhranın aradan qaldırılması, iqtisadi problemlərin və enerji məsələlərinin həllində əhəmiyyətli rol oynamışdır. Azərbaycanda ilk dəfə olaraq sosialist təsərrüfat sistemi ləğv edilmiş, torpaq islahatları və özəlləşdirmə tədbirləri həyata keçirilmişdir. Azərbaycanla Türkiyə Cümhuriyyətini əlaqələndirən Naxçıvan Muxtar Respublikası ərazisindəki Sədərək-Dilucu - "Ümid körpüsü"nün 28 may 1992-ci ildə istifadəyə verilməsi ilə ölkələr arasında çoxcəhətli əlaqələrin yeni mərhələsi başlanmışdır.

Ulu Öndər Heydər Əliyev Naxçıvanda ikən 21 noyabr 1992-ci ildə yaradılmış Yeni Azərbaycan Partiyası ölkənin sonrakı inkişafında mühüm rol oynamışdır. Çətin blokada şəraiti olmasına baxmayaraq 12 noyabr 1992-ci il tarixdə Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyinin muxtar respublika səviyyəsində keçirilməsi, Ali Məclisin Sədri kimi Heydər Əliyevin yubiley mərasimində iştirakı və dərin məzmunlu nitq söyləməsi Ulu Öndərin həyatının bütün məqamlarında ziyalı faktoruna xüsusi diqqət göstərməsinin bariz nümunəsidir. Bir sözlə, görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Azərbaycanda dövlət müstəqilliyinin böyük məktəbinə çevrilmişdir.

Heydər Əliyevin xalqın tələbi ilə Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməsi və ölkə rəhbəri kimi fəaliyyət göstərdiyi tarixi mərhələ (1993-2003) ölkəmizdə dövlət müstəqilliyinin yaradılması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi epoxasıdır.

Heydər Əliyev epoxası - Azərbaycanın xilası və inkişafı dövrünün epoxasıdır!

Heydər Əliyev epoxası - Azərbaycanda müstəqil dövlətçiliyin böyük təməllərinin, möhkəm əsaslarının yaradıldığı epoxadır!

Heydər Əliyev yolu - Azərbaycanı böyük gələcəyə aparan möhtəşəm magistraldır!

Bu, Böyük Qayıdışdan Milli Qurtuluşa və müasir inkişafa doğru dönməz şəkildə istiqamət alan müqəddəs və əbədi yolun möhkəm bünövrəsidir!

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə Heydər Əliyev milli dövlətçilik təlimini yaradıcı şəkildə inkişaf etdirməklə xalqımızın və dövlətimizin tarixində yeni bir epoxa yaratmağa nail olmuşdur. Möhkəm dövlətçilik, üstəgəl genişmiqyaslı quruculuq, müasirləşdirmə və modernləşdirmə, üstəgəl tarazlaşdırılmış müstəqil siyasət, analitik təhlil və gələcəyə aydın baxış bərabərdir İlham Əliyev demək mümkündür.

Yenidən qurulmuş və modern inkişaf səviyyəsinə çatdırılmış müasir Azərbaycan tam mənası ilə Prezident İlham Əliyevin möhtəşəm əsəridir!

Böyük siyasətin sayəsində regionların inkişafı proqramının düşünülmüş və məqsədyönlü həlli ilə Azərbaycanda bütün bölgələrin bərabər və yüksək inkişafının təmin edilməsi, "nöyütün padşahı" olan paytaxtımız Bakı şəhərinin tamamilə yenidən qurulması, o cümlədən Naxçıvan Muxtar Respublikasında da böyük inkişafa nail olunması ölkəmizin dünyanı təəccübləndirən reallıqlarıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkənin digər regionları kimi, Naxçıvan Muxtar Respublikasına olan səfərləri zamanı hər dəfə açılışına start verilən sənaye obyektləri, təhsil, mədəniyyət və səhiyyə müəssisələri, çəkilən yollar, salınan körpülər, parklar qədim diyarın müstəqil dövlətimiz qarşısında böyük hesabatına çevrilir və yeni inkişafa start verir. Ümummilli Liderimiz Heydər Əliyevin tarixin çətin sınaq məqamlarında böyük xilaskarlıq missiyasını həyata keçirərək qoruyub saxladığı və gələcək inkişafının proqramını müəyyən etdiyi Naxçıvan Muxtar Respublikası hazırda Ulu Öndərin adına və arzularına layiq şəkildə, böyük sürətlə, hərtərəfli və məqsədyönlü şəkildə inkişaf edir.

Naxçıvan milli dəyərləri yaşatmaq şərtilə Şərqin qapısından Qərbin modern inkişafının yüksək səviyyəsinə doğru inamla addımlamaqda davam edir. Hazırda Naxçıvan milli tarixi ənənələri yaradıcılıqla inkişaf etdirib möhkəmləndirən və Qərbyönlü inkişafın əsas meyillərini özündə cəmləşdirən günəşli diyardır.

Ümummilli Liderimizin Ali Məclisə rəhbərlik etdiyi dövrdən sonrakı iyirmi altı illik müddət ərzində Naxçıvan Muxtar Respublikasının keçdiyi çətin və şərəfli mübarizə yolu, əldə edilmiş böyük nailiyyətlər müstəqil ölkəmizdə Heydər Əliyev - İlham Əliyev siyasətinin real təntənəsini əks etdirən böyük bir hesabatdır!

Möhtərəm Prezident İlham Əliyevin qayğısı ilə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun dövlətçiliyə sədaqətlə xidməti və yorulmaz, çoxcəhətli fəaliyyəti sayəsində Naxçıvan Muxtar Respublikasında qazanılmış müvəffəqiyyətlər, Naxçıvanın rəqabətədavamlı inkişaf göstəricilərinə görə respublikamızın iqtisadi rayonları arasında birincilik səviyyəsinə çatdırılması ölkəmiqyaslı mühüm nəticələrdən biridir. Naxçıvan Muxtar Respublikası ölkəmizin ərazi bütövlüyünün qorunub daha da möhkəmləndirilməsinə, milli dövlətçiliyin inkişaf etdirilməsinə, quruculuq proseslərinin genişləndirilməsinə özünün sanballı töhfələrini verməklə tarixi yolunu böyük uğurla davam etdirir.

*Göründüyü kimi, görkəmli dövlət xadimi Heydər Əliyevin iyirmi altı il bundan qabaq, 3 sentyabr 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməsi Azərbaycan tarixinin mühüm və əlamətdar hadisəsidir. Məhz bu böyük siyasi hadisə ilə ölkəmizdə tarixi gedişatın istiqaməti qəti şəkildə müəyyən olunmuş, dövlət müstəqilliyinin möhkəm və əsaslı təməlləri atılmışdır. Möhtərəm Prezident İlham Əliyevin böyük siyasətdə və genişmiqyaslı quruculuq proseslərində atdığı ciddi, əhəmiyyətli və qətiyyətli addımlar müasir şəraitdə daha möhtəşəm nailiyyətlər qazanmağa, əslində, müstəqil dövlətçiliyin inkişafında yeni tarixi mərhələ yaratmağa gəlib çatmağın və böyük gələcəyə doğru inamla getməyin sübutudur.*

**İsa HƏBİBBƏYLİ,**
***AMEA-nın vitse-prezidenti,***
***Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri, akademik***

# İnam ünvanı, ümid yeri

*Əvvəli 1-ci səh.*



Ailənin də, cəmiyyətin də bütövlüyünü, vəhdətini qorumaq. Hiylədən, məkrdən, qan-qada ehtirasından uzaq bir tərzdə sülhə, inkişafa töhfə vermək. Evi, daha geniş çevrədə isə el-obanı, vətəni hər kəsin rahatlıq, dinclik, könül xoşluğu tapdığı abad bir məkana çevirmək. Ən ağır anlarda da öz əhdinə, namusuna, sevgisinə sadiq qalmaq. Vətən üçün saleh övladlar yetişdirib tərbiyələndirmək.

Bəlkə elə buna görə tariximizdə qadın hökmdarların sayı bu qədər azdır. Onlar heç vaxt hökmdarlıq uğrunda çalışmayıblar. Rəhbər olan ömür-gün yoldaşlarının, atalarının, qardaşlarının, oğullarının uğurlarına dəstək verməyi, onlara söykək durmağı dünyanın ən yüksək statusu biliblər.

"Kitabi-Dədə Qorqud"dakı Burla xatundan, Banu Çiçəkdən, Selcan xatundan, Atabəylər dövründə yaşamış Möminə xatundan Mehrican xatuna, Şərqin ilk diplomat qadını Sara xatuna, Koroğlunun Nigarından Quba xanı Fətəli xanın xanımı Tuti Bikəyə, Qaçaq Nəbinin Həcərindən İkinci Dünya müharibəsində, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda milli mücadiləmizdə igidlik göstərən, şəhid olan, müxtəlif fəaliyyət sahələrində fədakar əməyi ilə vətənin inkişafına dəyərli töhfələr verən digər xanımlarımıza qədər Azərbaycan tarixinin xatırladığı bütün qadın obrazlarını məhz belə görmüşük.

❖ ❖ ❖

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva haqqında qeydlərə belə bir müqəddimə ilə başlamağım heç də təsadüfi deyil.

Bütün həyat və fəaliyyəti, şəxsiyyət cizgiləri etibarilə Mehriban xanım Əliyeva ictimai fikir tariximizin zirvələrində görünən Azərbaycan qadınlarının ümumiləşmiş obrazıdır.

Bu obraz həm yüksək nəciblik və zərafəti, qadın ismətini, həm yurda və insanlara sonsuz sevgini, həm dəyanəti, həm ailə ocağına bağlılığı, ömür-gün yoldaşına verilən dəyəri, həm də əməksevərliyi, dünyanı gözəlləşdirmək duyğusunu özündə bir araya gətirir.

Amma Mehriban xanım Əliyeva Azərbaycan qadınına xas bütün bu ali keyfiyyətləri öz şəxsiyyətində sadəcə ümumiləşdirən və Azərbaycanda qadın fəallığı ənənələrini sadəcə davam etdirən obraz deyil.

O, bu ənənələrdə yeni bir tarixdir, yeni bir başlanğıcdır!

Mehriban xanımla Azərbaycan qadını tarixdə yeni bir səhifə açır. Bu addan möhtəşəm bir tarix başlanır.

Mehriban xanım Əliyeva Azərbaycan qadınının malik olduğu bütün yüksək keyfiyyətləri həm də dövlət idarəçiliyinə daşıyıb gətirən, dövlətçilik statusu qazandıran tarixi şəxsiyyətdir.

İlk dəfə Azərbaycan qadını bu qədər yüksək dövlətçilik səviyyəsində öz potensialını realizə edib parlaq nümunələr yarada bilir.

❖ ❖ ❖

Mehriban xanımın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi ilə tarixdə ilk dəfə olaraq Azərbaycan qadınına bu qədər yüksək etimad göstərildi. Ona dövlətin taleyi ilə bağlı böyük missiya həvalə edildi. Amma bundan da önəmli olanı Azərbaycan qadınının bu etimadı, inamı, güvəni, Mehriban xanımın şəxsində öz nəcib əməlləri, örnək olası fəaliyyəti, ötən onilliklər ərzində ona tapşırılmış hər bir işi yüksək səviyyədə yerinə yetirməsi ilə qazanmasıdır. Bu missiyanı öz fərdi istəyindən daha çox cəmiyyətin sosial sifarişi kimi üzərinə götürməsidir. Onun ali dövlət vəzifəsində olmasının Azərbaycan insanının arzuları ilə üst-üstə düşməsidir.

Etiraf edək ki, biz azərbaycanlılar və ümumilikdə Şərq xalqları qadınların üzərinə həddən artıq ağır mənəvi vəzifələr qoymuşuq. Bu, yaxşıdır, ya pisdir, birmənalı nəsə söyləmək çətindir. Qadının evdə, ailədə yerinə yetirdiyi təsərrüfat-məişət qayğıları, uşaqların təlim-tərbiyəsinə sərf etdiyi əmək, iş yerlərində çəkdiyi əziyyətlər öz yerində, bunlar hər kəsə bəlli həqiqətlərdir, burada qadından mənəvi gözləntilərlə bağlı başqa bir nümunə gətirəcəyəm: dünyada namus, qeyrət, mentalitet anlayışlarının dəqiq elmi izahını verə biləcək ədəbiyyatlar, tədqiqat əsərləri düşünürəm ki, hələ yoxdur. Çünki bu mövzularda tam dəqiqliyi ilə heç yana gedib çıxmaq mümkün deyil, mütləq bir yerlərdə mövqelər haçalanacaq. Bizsə, indi baxın, min illər əvvəldən qadını namusun, qeyrətin, mentalitetin əsas simvoluna çevirmişik. Bu anlayışlar səslənən kimi birinci qadınlar yada düşür. Bu milli dəyərlərin qorunması əsas etibarilə qadının vəzifəsi bilinir, cəmiyyət bunu qadınlardan gözləyir.

Azərbaycan qadını elin-ulusun, ailəsinin bu yanaşmalarını, inamını, ümidlərini, arzularını doğrultmaqdan, adına toz qondurmamaqdan ötrü tarix boyu min bir fədakarlıqlara qatlaşıb. Ona inam bəsləyən bütün insanların başını adı və əməlləri ilə daim uca edib. Buna nail olmaqdan ötrü hətta bəzən ağlasığmaz fədakarlıqlara, əzab və əziyyətlərə belə qatlaşıb. Bununla belə, şəxsiyyətinin ucalığını, toplumun yüksək münasibətinə layiqliyini həmişə qoruyub.

Mehriban xanımın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsində həyata keçirdiyi fəaliyyət, onun rəhbərliyi ilə ortaya qoyulan nəticələr bu ali keyfiyyətlərin dövlət idarəçiliyi səviyyəsində də təzahür etməsidir.

O, təmsil olunduğu ali dövlət vəzifəsində, milli dövlətçilik zirvəsində tək bir evin, bir elin-ocağın deyil, ümumən xalqın qeyrətidir, Azərbaycan qadınının təmiz, şərəfli, hər davranışında başımızı uca edən adıdır, əllərinin səliqəsidir, sevgisi, şəfqətidir.

❖ ❖ ❖

Mehriban xanım Əliyeva şəxsiyyəti dövləti öz vətəndaşına daha da doğmalaşdırır, dövlət idarəetməsinə humanizm çalarları gətirir.

Dövlətə, hökumətə siyasi-inzibati idarəçilik məzmunundan daha çox bir ailə mahiyyəti verir.

Milyonlarla vətəndaşımız üçün Mehriban xanım hansısa dövləti vəzifəni yerinə yetirən, sıravi vətəndaşla əyləşdiyi kabinet arasında müxtəlif sədlər olan rəsmi şəxs deyil, bir anadır, bacıdır, hər bir azərbaycanlı ailəsinin doğma üzvüdür.

Elə indicə kabinet sözünü yazdım, amma bu söz ətrafında dərhal da tərəddüdlərim başladı, düşündüm ki, axı Mehriban xanımı iş kabinetində heç cür təsəvvür etmək olmur. Çünki biz onu həmişə iş üstündə, irimiqyaslı layihələrin müzakirə edildiyi toplantılarda, müxtəlif sosial problemlərin həlli proseslərində, beynəlxalq toplantılarda, bunlardan da çox sıravi insanlar arasında, sadə vətəndaşların əhatəsində görmüşük.

İnsan öz ailəsinin doğma üzvünə necə güvənib bel bağlayırsa, Azərbaycan insanı da Mehriban xanıma belə münasibət bəsləyir. Hansısa çıxılmaz problemlə üzləşəndə ona yazmaq, dərdlərini, qayğılarını onunla bölüşmək, müxtəlif problemlərin həlli üçün ondan kömək istəmək olar. Əmin ola bilərsən ki, heç bir müraciət cavabsız qalmayacaq, vətəndaşı narahat edən məsələlərin həlli üçün nə imkanlar varsa, istifadə ediləcək, hətta ən mümkünsüz anlarda belə ən azı vəziyyətin düzgün izahı veriləcək, aydın bir yol göstəriləcək, vətəndaş ən azı görəcək ki, dövləti onun yanındadır.

Mehriban xanımı Azərbaycan insanına hansısa rəsmi statusları, daşıdığı vəzifələr doğmalaşdırmayıb, əməlləri doğma edib, bu insanlar üçün gördüyü işlər, onlara verdiyi dəyər rəğbət qazandırıb.

Onun yaratdığı nümunə göstərir ki, əslində, insanların öz dövlətindən, hökumətindən qeyri-mümkün nəsə gözləntisi yoxdur. İnsanlar özlərinə diqqət, həssas münasibət istəyirlər, səlahiyyət sahiblərinin öz işlərini yarıtmasını arzulayırlar, onlara həvalə edilən vəzifələrə layiqincə əməl etmələrini, cəmiyyət qarşısındakı sosial məsuliyyətlərinin fərqində olmalarını gözləyirlər.

Buna əməl etməyi bacaran hər bir dövlət təmsilçisini vətəndaş bağrının başına qoyacaq.

Necə ki, Azərbaycan insanına milli dövlətçilik tarixinin ən böyük nailiyyətlərini qazandıran, həmişə insanların yanında olan, məmurlardan vətəndaşlara layiqincə xidmət tələb edən Prezident İlham Əliyevə vətəndaşlarımız sonsuz sevgi bəsləyirlər.

Necə ki, insanlar üçün çalışan, yerinə yetirdiyi bütün layihələrdə insan inkişafını nəzərdə tutan Mehriban xanıma ümumxalq məhəbbəti belə böyükdür.

❖ ❖ ❖

Dövlət xadimi kimi Mehriban xanım Əliyevanın şəxsiyyətində maraqlı bir məqam da diqqətimi çəkir. O, Ulu Öndər Heydər Əliyevin ötən əsrin 70-ci illərində inkişafına böyük dəstək verdiyi, çevrəsini daha da genişləndirdiyi ziyalı elitası mühitindən çıxıb. Həm Azərbaycanın görkəmli ziyalıları olan babaları Mir Cəlal Paşayevin və Nəsir İmanquliyevin, valideynləri akademik Arif Paşayevin və Azərbaycanın ilk şərqşünas xanımlarından Aida İmanquliyevanın ailə ocağında gördüyü tərbiyə, həm də İ.M.Seçenov adına Moskva Tibb İnstitutu kimi nüfuzlu təhsil müəssisəsində aldığı yüksək ali təhsil etibarilə o, belə bir mühitin yetirməsidir.

Yaşın yetkinləşən və ictimai-siyasi proseslərə daha böyük maraq göstərən dövrlərində isə Mehriban xanım Heydər Əliyev kimi siyasət ustadının, görkəmli oftalmoloq alim Zərifə xanım Əliyevanın ocağında gəlin olub. Ulu Öndərin öz həyat və fəaliyyəti ilə yaratdığı siyasi tarixin ən keşməkeşli dönəmlərində bu böyük dövlət adamının ailəsinin doğma üzvü kimi yaxından iştirak edib. Ən çətin anlarında Ulu Öndərə mənəvi dəstək olub, övlad sevgisi ilə onun gücünə güc qatıb.

Ömür-gün yoldaşı cənab İlham Əliyevin hələ ötən əsrin 90-cı illərinin ortalarında ölkəmiz üçün taleyüklü qərarların, yeni enerji strategiyalarının hazırlanması və qəbulu istiqamətində həyata keçirdiyi fəaliyyətə dəstək verib, o çətinliklərin, sınaqların, uğurların hər biri onun da həyatından keçib.

Və bütün bunlar Mehriban xanıma böyük tarixi-siyasi təcrübə qazandırıb.

Bu mənada Azərbaycanın Birinci vitse-prezidenti ölkənin mədəni və siyasi elitasının ali keyfiyyətlərini öz şəxsiyyətində bir araya gətirir. Ona görə də Mehriban xanım həm mədəni, həm də siyasi sferaya dərindən bələddir, hər iki istiqamətdə eyni effektivliklə çalışaraq ortaya dövlət üçün də, xalq üçün də faydalı, real nəticələr qoyur.

❖ ❖ ❖

Mehriban xanım Əliyeva sosial statusundan, kimliyindən asılı olmayaraq insanları halından anlayan, onların dərdinə şərik olmağı bacaran şəxsiyyətdir. Bu, sonradan qazanılmış, məcburən əxz edilmiş, yaxud vəzifə öhdəliyi kimi yerinə yetirilən keyfiyyət deyil, onun təbiətindən gəlir.

"Nə üçün sadə azərbaycanlılar ölkənin birinci xanımını sevirlər?" deyə sual edən rusiyalı politoloq Aleksandr Karavayev haqlı olaraq yazır ki, onlar Mehriban xanım Əliyevanın timsalında "yaxasını kənara çəkən" funksioner deyil, onların istəkləri ilə maraqlanan, protokol çərçivəsindən kənara çıxmağı, hər bir ciddi problemə münasibət bildirməyi bacaran insan görürlər. "Maraqlı fakt: nisbətən kiçik ölkədə o, hər gün "yerlərdən" təqribən 300 məktub alır. Ona yazırlar, çünki bilirlər ki, müraciət edib yardım, dəstək, yaxud məsləhət ala bilərlər. Azərbaycan Prezidentinin xanımı ölkə daxilindəki səfərlərdə daim onu müşayiət edir. Yəni o, necə deyərlər, göz qabağındadır və bununla da iqtidarla cəmiyyətin qarşılıqlı əlaqələrinə öz töhfəsini verir. Həm də bu, necə deyərlər, canlı töhfədir və buna görə də xalqın gözündə inzibati kommunikasiyaların standart "mexaniki" strukturlarından daha qiymətlidir, çünki xeyirxahlıq və şəfqət insanın daxilindən gəlməlidir, yoxsa ictimaiyyət onu qəbul etməyəcək. İnsanlar hiss edirlər ki, birinci xanım onların qayğıları ilə yaşayır".

Müəllif yüzdə yüz haqlıdır. Məhz bu məziyyətlərinə görə bu gün vətəndaşlar gündəlik həyatda nəyinsə öz nizamında olmadığını görəndə, hansısa dövlət idarəsinin qeyri-həssas, yarıtmaz münasibəti ilə qarşılaşanda, hansısa ictimai problemdən narahat olanda, hətta hansısa televiziya verilişini bəyənməyəndə belə dərhal Mehriban xanımı yada salırlar.

"Mehriban xanım bilsə...", "Vəziyyət Mehriban xanıma çatdırılsa, belə qalmayacaq", "Məsələ Mehriban xanımın birbaşa nəzarətindədir", "Görəsən, Mehriban xanım bu barədə məlumatlıdır?!", "Mehriban xanıma müraciət etdik, həll olundu", "Eşitməmisiniz, Mehriban xanım o gün nə deyib?!" və s. cümlələrlə başlanan, bu cümlələrlə tamamlanan mükalimələri indi müxtəlif sosial qruplara aid insanların söz-söhbətlərində çox tez-tez eşitmək olar.

Nə gizlədək, hərdən adi "demaqoqlar" da tapılır, Mehriban xanımın adı ilə müxtəlif ranqlı məmurlara, dövlət idarələrinə hərbə-zorba gələn vətəndaşlar da görürük və məsələnin mahiyyətindən, vətəndaşın o durumda haqlı, ya haqsız olmasından asılı olmayaraq, bu adla özünü güvəndə, güclü hiss etməsi adama çox xoş gəlir.

❖ ❖ ❖

Mehriban xanım Əliyeva Birinci vitse-prezident kimi bu gün ölkəmizin hakimiyyət elitasında, dövlət siyasətinin icrasında mühüm rol oynayır. Hakim elitanın yerinə yetirdiyi konkret funksiyalar isə yetərincə çoxdur. Strateji, kommunikativ, təşkilati, inteqrativ funksiyaları onların ən vacibləri sırasına aid edə bilərik.

Həmin funksiyalar arasında birinci yerdə strateji funksiya durur. Onun mahiyyəti ictimai inkişafı təmin edən siyasi fəaliyyət proqramları, strategiya və taktikaların hazırlanmasıdır. Bu gün dövlətimizin cəmiyyətin dəyişim tələbatına uyğun irəli sürdüyü yeni ideyalarda, strategiyalarda, davamlı islahatların həyata keçirilməsi üçün hazırlanan konsepsiyalarda Mehriban xanım Əliyevanın da baxışlarını, fəaliyyət tərzini, strateji yanaşmalarını, peşəkar menecer kimi təşkilati-icra meyarlarını duyub hiss edirik.

Strateji funksiyanın uğurlu şəkildə reallaşdırılması isə yalnız cəlb olunmuş kadrların keyfiyyəti ilə təyin olunmur. Bu həm də ölkənin ictimai fikrindən və bu fikirlərin siyasi qərarların qəbulunda əksolunma vəziyyətindən asılıdır. Şübhəsiz, burada söhbət kommunikativ funksiyadan gedir. Bu funksiyanın başlıca məqsədi siyasi proqramlarda əhalinin müxtəlif təbəqəsinin sosial qruplarının maraq və tələbatlarının nə dərəcədə öz əksini tapdığını və praktik fəaliyyətdə reallaşdırıldığını izləməkdir. Bu funksiyanın ən mühüm üstünlüyü müxtəlif sosial qrupların əhvalını görmək, ictimai fikrin müxtəlif həyati məsələlərə görə dəyişməsinə tez və dəqiq reaksiya göstərməkdir.

Mehriban xanım Əliyevanın məsələlərə yanaşmalarını, aktual mövzulara çevik reaksiyalarını, insanların qəlbindən xəbər verən, rəğbət doğuran addımlarını müşahidə etdikdə belə bir qənaət hasil olur ki, ölkə gündəmi onun çox ciddi nəzarətindədir.

Bu çeviklik, həssaslıq, vəziyyətə adekvat addımlar dəyişən dünyamızın, informasiya cəmiyyətinin dövlət xadimləri qarşısında aktuallaşdırdığı tələbdir. Azərbaycanda da ictimai maraq kəsb edən hər bir məsələyə ən yuxarı səviyyədə xüsusi həssaslıq göstərilir, diqqət ayrılır, problemlərin həlli, vəziyyətin yoluna qoyulması, qanunun aliliyinin, haqq-ədalətin təmin edilməsi üçün dövlətin atmalı olduğu heç bir addım özünü gözlətmir. Təbii ki, bu, ilk növbədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin idarəetmə üslubudur. Ona da öz ustadından, informasiyaları müxtəlif kanallar vasitəsilə əldə edən və cəmiyyəti ovcunun içi kimi görməyi bacaran Ulu Öndər Heydər Əliyevdən keçib.

Mehriban xanım da müxtəlif sosial qruplarla sıx kommunikativ əlaqələr qurmağı, cəmiyyətlə işləməyi, yerinə yetirdiyi inteqrativ funksiya ilə cəmiyyətimizdəki vəhdəti daha da gücləndirməyi çox gözəl bacarır və bu yöndə fəaliyyəti ilə Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi inkişaf strategiyasına çox böyük töhfələr verir.

❖ ❖ ❖

Təşkilatçılıq, evin, elin abadlığı, güzəranı qayğısını çəkmək və bunu əzab-əziyyət hissi ilə deyil, sevərək yerinə yetirmək Azərbaycan qadınının fitrətindədir.

Bunu yaza-yaza nənələrimizin, ana-bacılarımızın xalça toxumaq, cehizliklər salmaq, bayram hazırlıqları görmək, ağır-ağır məclislərin biş-düş işini layiqincə yola vermək kimi hansısa böyük zəhmətli bir işi vaxtında başa çatdırmaqdan ötrü necə səfərbər olduqlarını, bir-birinə necə dəstək verdiklərini, işin konkret hissələrini onu ən yaxşı bacaranlara həvalə etdiklərini, müasir dillə desək, komanda halında çalışdıqlarını və əziyyətlərinin bəhrəsinə də birlikdə fərəhləndiklərini uşaqlığımın ən gözəl anları ilə xatırlayıram.

Mehriban xanımın böyüklüyü bundadır ki, o, Azərbaycan qadınına xas bu mütəşəkkilliyi, təşkilatçılıq bacarığını və çəkdiyi zəhmətdən mənəvi məmnunluq duyğusunu dövlət idarəçiliyi sisteminə də daşıyıb gətirməyə müvəffəq olub.

Bu, hakimiyyət elitasının təmsilçisi kimi onun yerinə yetirdiyi təşkilati funksiyanın, deyərdim ki, ən böyük uğurlarındandır. Mehriban xanım insanları konkret məqsədlər, hədəflər ətrafında səfərbər edə bilir. Hər bir layihənin icrası prosesinin iştirakçılarına aid rol bölgülərini, onların yerinə yetirməli olduqları vəzifələri, gözləntiləri dəqiq müəyyənləşdirir. İcraçıların əsas effektivlik göstəricilərini dəqiq qiymətləndirməyi bacarır, nəsə öz nizamında olmayanda dərhal müdaxilə edib, zəif bəndləri aradan qaldırır.

İnsanlar onun irəli sürdüyü layihələrdə böyük sevgi ilə iştirak edirlər, çünki bu layihələrin hədəfində getdikcə abadlaşan vətəni, tərəqqi tapan cəmiyyəti, çeşidli problemlərdən qurtulan sadə insanların taleyini görürlər. Bir önəmli məqam da var. Bütün bu iş proseslərində Mehriban xanım sadəcə tapşırıqları ilə, effektiv nəticələr haqqında hesabat tələbləri ilə işini məhdudlaşdırmır, özü əsl lider kimi, iş prosesinin önündə gedir, layihələrə əmək sərf edən hər kəsə bilik və bacarıqları, təcrübəsi, əməksevərliyi ilə nümunə yaradır.

❖ ❖ ❖

Bütün cəmiyyətlərdə yeni nəsillərin, hələ yolun başında olan gənclərin ideallara, nümunəyə ehtiyacı var.

Mehriban xanım Əliyeva bu mənada Azərbaycanın bugünü və gələcəyi üçün tarixi bir missiya yerinə yetirir. Müasir Azərbaycan gəncliyi onu özü üçün nümunə kimi qəbul edir. Ondan öyrənir, ondan əxz etməyə, hansısa dəyərləri, təcrübələri mənimsəməyə çalışır.

Bu missiyanı yerinə yetirən şəxsiyyətin qadın olması cəmiyyətimiz, gəncliyimiz üçün minqat faydalıdır. Çünki belə bir nümunə gənc qızlarımızın fərdi inkişafı deməkdir, onların cəmiyyətin ictimai həyatına fəal şəkildə cəlb olunmasıdır, ölkədə qadın fəallığı ənənələrinin güclənməsidir.

İndi diqqət edirəm, gənc qızlarımız, namxuda, getdikcə fəallaşırlar. Təhsil almağa, müxtəlif fəaliyyət sahələrində faydalı təcrübə qazanmağa böyük maraq göstərirlər, bu istiqamətdə qarşılarına çıxan bütün imkanları, fürsətləri dəyərləndirməyə çalışırlar. Zəhmətdən çəkinmirlər, hansısa ümumi məqsədlər ətrafında toparlana, bir-birinə dəstək ola bilirlər, xeyriyyəçilik fəaliyyətini, ehtiyacı olanlara təmənnasız kömək göstərməyi, rastlarına çıxan sosial problemləri ictimailəşdirib həllinə birlikdə çıxış yolu axtarmağı özləri üçün sosial dəyərə çeviriblər.

Qızlarımızın, qadınlarımızın bu sosiallaşma meyli gələcək inkişafımız üçün o qədər böyük faydadır ki, bunu sözlə ifadə etmək belə çətindir. Axı hər bir cəmiyyətin inkişafı onun xanımlarından başlanır...

Cəmiyyətin gələcəyini dünyaya gətirənlər, verdikləri təlim-tərbiyə, övladlara aşıladıqları dəyərlərlə sabahın mənzərəsini yaradanlar onlardır. Ona görə də gənc qızlarımızın bugünkü əzmkarlığını, məqsədyönlülüyünü, əməksevərliyini, məsuliyyətini duyub hiss edəndə gələcəyimiz çox parlaq görünür.

❖ ❖ ❖

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin milli dövlətçilik tarixinin ən qüdrətli mərhələsinə yetirdiyi, Mehriban xanım Əliyevanın isə müxtəlif təşəbbüslərlə, sosial-humanitar layihələrlə yeni dəyərlər yaratdığı Azərbaycan bu gün hər birimizə doğma milli ailə modelimizi xatırladır.

Ailənin başçısı evi, ocağı yad müdaxilələrdən, mümkün kənar təhlükələrdən qoruyur. Evin çörək teknəsinin heç vaxt boş qalmaması, ruzi-bərəkətinin getdikcə artıb çoxalması, hər bir şeyin yerli-yerində, nizamında olması üçün əlləri işdə-gücdə, düşüncələri yeni imkanların axtarışındadır.

Onun gücü, dəyanəti, təpəri sayəsində Vətən evi güvəndədir, rifah və abadlıq içindədir.

Evin xanımı isə səliqə-sahmanı, ailənin hər bir üzvünə diqqəti, qayğısı, qəlbinin sevgi payı ilə bu ailə mühitinə əsl ana obrazını daxil edir.

**O, övladların fiziki və mənəvi sağlamlığı, təhsili, təlim-tərbiyəsi, işi-peşəsi, ev-eşik sahibi olması qayğısına qalan doğma Anadır...**

**O, ailə dəyərlərini göz bəbəyi kimi qoruyan, bu mənəvi əmanəti gələcək nəsillərə daha da inkişaf etdirərək ötürmək üçün min bir zəhmətə qatlaşan fədakar İnsandır...**

**O, Şərqlə Qərb mədəniyyətinin qovşağında, sivilizasiyalararası dialoq, tolerantlıq, multikulturalizm kimi ali dəyərlər işığında, mədəniyyət diplomatiyası müstəvisində dünyaya mükəmməl bir Azərbaycan təqdim edən Vətən övladıdır...**

**O, Mehriban Əliyevadır...**

**Adı da əməlləri kimi şərəfli Azərbaycan qadını...**

**Hüseynbala MİRƏLƏMOV,**
***Milli Məclisin deputatı,***
***YAP Xətai rayon təşkilatının sədri***

# Daxili Qoşunların ölkəmizdə müstəqilliyin və daxili sabitliyin qorunmasında xüsusi xidmətləri var





Daxili İşlər Nazirliyinin (DİN) Daxili Qoşunlarının Qəbələ rayonu ərazisində yerləşən "N" saylı hərbi hissəsinin zabit və gizirləri üçün əsaslı təmir edilmiş yaşayış binasının istifadəyə verilməsinə həsr olunmuş mərasim keçirilib. DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə iştirak edən Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov yeni binada mənzillə təmin olunmuş sakinlər qarşısında çıxış edərək onları təbrik edib, yeni mənzillərində xoşbəxtlik, yüksək rifah, eləcə də xidmətdə uğurlar arzulayıb. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkənin ictimai-siyasi, iqtisadi həyatında, ordu quruculuğunda böyük uğurlar qazanıldığını, daxili işlər orqanlarının maddi-texniki bazasının daha da möhkəmləndiyini, hərbi qulluqçuların sosial-məişət şəraitinin ilbəil yaxşılaşdığını vurğulayıb. Nazir deyib ki, son illər Daxili Qoşunlar üçün də müxtəlif təyinatlı onlarla obyekt, hərbi şəhərciklər, o cümlədən hərbi qulluqçular üçün yeni yaşayış kompleksləri, əsgər kazarmaları, müasir avadanlıqlarla təchiz edilmiş tibb məntəqələri və s. tikilərək istifadəyə verilib. Bildirilib ki, yeni təmir olunmuş 5 mərtəbəli 80 mənzilli bu binanın da istifadəyə verilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi böyük diqqət və qayğının bariz nümunəsidir.

Nazir hərbi qulluqçulara verilən mənzillərə baxıb, onlarla həmsöhbət olub. Daxili Qoşunların yeni tikilidə mənzillə təmin olunan zabit və gizirləri, onların ailə üzvləri göstərilən ali diqqət və qayğıya, hərbi qulluqçuların sosial rifah halının, mənzil-məişət şəraitinin daha da yaxşılaşdırılmasına görə ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Daha sonra nazir, general-polkovnik Vilayət Eyvazov Daxili Qoşunların Qəbələ, Zaqatala rayonlarında və Şəki şəhərində yerləşən hərbi hissələrində olub. Bu tədbirlərdə nazir müavini-Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov general-polkovnik Vilayət Eyvazova şəxsi heyət və texnika barədə raportlar verib.

Hərbi hissələrin sıra meydanında düzülmüş hərbi qulluqçuların və əsgərlərin qarşısında çıxış edən nazir V.Eyvazov Ulu Öndərin əsasını qoyduğu inkişaf və tərəqqi strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilməsi nəticəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının artdığını, beynəlxalq mövqelərinin möhkəmləndiyini bildirib, dövlət başçısının ümumən ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki təminatına, iş və məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

Daxili Qoşunların ölkəmizdə müstəqilliyin və daxili sabitliyin qorunmasında xüsusi xidmətləri olduğunu diqqətə çatdıran nazir şəxsi heyətin ictimai asayişin qorunmasında və ictimai təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirakını qeyd edib, yüksək peşəkarlığa, döyüş və mənəvi-psixoloji hazırlığa malik bir quruma çevrildiyini məmnunluqla bildirib. O, ölkəmizə qarşı elan olunmamış müharibənin ilk günlərindən Daxili Qoşunların cəbhə xəttində şərəfli döyüş yolu keçdiyini, bu yolda yüzlərlə şəhid verdiyini qeyd edərək bildirib ki, hələ də torpaqlarımızın 20 faizi işğal altında olduğuna görə, hazırda ölkəmiz müharibə şəraitindədir. Ona görə də qüdrətli Azərbaycan Ordusu ilə yanaşı, Daxili Qoşunların şəxsi heyəti də öz üzərinə düşən xidməti vəzifələri ilə bərabər torpaqlarımızın azadlığı və ərazi bütövlüyümüzün bərpası üçün Ali Baş Komandanın verəcəyi əmrin icrasına hər an hazır olmalı, döyüş hazırlığı səviyyələrini daim yüksək saxlamalıdırlar. Hərbi hissələrin şəxsi heyətinə konkret tapşırıq və tövsiyələrini verən Daxili İşlər naziri sonda daxili işlər orqanlarının, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Daxili Qoşunların şəxsi heyətinin fəaliyyətini hər zaman yüksək qiymətləndirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə dərin minnətdarlığını bildirib və onu əmin edib ki, Daxili Qoşunların hərbi qulluqçuları qarşıya qoyulan bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək, göstərilən ali diqqət və böyük etimadı xalqına, vətəninə, dövlətinə və Prezidentinə sədaqətli xidməti ilə doğruldacaq.

Daxili İşlər naziri V.Eyvazovun rəhbərliyi ilə hərbi hissələrin qərargahlarında komandir heyətləri ilə əməliyyat müşavirələri keçirilib. Sonra o, hərbi hissələrin tədris, silah otaqlarında, avtomobil və zirehli texnika parkında, tibb məntəqələrində, yeməkxanalarında olub, hərbi qulluqçuların sosial-məişət şəraiti ilə maraqlanıb.

Nazir əsgər yeməkxanalarında şəxsi heyətlə birlikdə nahar edib.

# Qafqaz Müsəlmanları İdarəsinin sədri Səudiyyə Ərəbistanının Kralı ilə görüşüb

Sentyabrın 2-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Ciddə şəhərində yerləşən Əs-Səlam Kral sarayında İki Müqəddəs Məscidin Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud ilə görüşüb.



QMİ-dən AZƏRTAC-a bildiriblər ki, Şeyxülislam Allahşükür Paşazadə Kral Salman bin Əbdüləziz Al Səuda Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın salamlarını, dost Səudiyyə Ərəbistanına xoşbəxtlik, sabitlik və inkişaf diləklərini yetirib.

Allahşükür Paşazadə Kral Salman bin Əbdüləziz Al Səudun Ermənistan tərəfindən təcavüzə məruz qalmış Azərbaycana verdiyi ənənəvi dost, qardaş dəstəyini Prezident İlham Əliyevin və xalqımızın həmişə yüksək qiymətləndirdiyini vurğulayıb. Bildirib ki, Azərbaycan müsəlmanları bu gün mənəvi intibah dövrünə qədəm qoyub. Məscidlərimizin sayı 2000-i keçir, islam dininin tədris olunduğu ali təhsil ocaqlarımız çoxalır. Ölkəmizdə başqa dinə etiqad edənlər də öz ibadətlərində azaddırlar. Bu ilin noyabr ayında Bakıda dinlərarası sammit keçiriləcək və bu, Azərbaycana olan beynəlxalq etimaddan xəbər verir. QMİ sədri Həcc zəvvarlarının yüksək səviyyədə qarşılanması üçün Krala minnətdarlığını ifadə edib. A.Paşazadə Səudiyyə Ərəbistanı və Azərbaycan arasındakı münasibətlərin bütün islam aləmi üçün bir nümunə olmasını diləyib.

Görüşdə tərəflər iki dost və qardaş dövlət arasında əməkdaşlıq məsələlərini müzakirə edib, islamın sülh və mötədillik dini olaraq təlim edilməsinin vacibliyi barədə fikir mübadiləsi aparıblar.

Görüşdə Səudiyyə Ərəbistanının Daxili İşlər naziri Şahzadə Əbdüləziz bin Səud bin Nəyif bin Əbdüləziz, Kral Divanının müşaviri Səəd Nasir Əl-Şisri, Xarici İşlər naziri İbrahim bin Əbdüləziz Əl-Əssaf və İki Müqəddəs Məscidin Xadiminin xüsusi katibinin köməkçisi Təmim bin Əbdüləziz Əs-Səlim, Azərbaycan tərəfdən isə QMİ sədrinin müavini müfti Salman Musayev və Milli Məclisin deputatı Cavanşir Paşazadə iştirak ediblər.

## Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məsul işçilərinin 2019-cu ilin sentyabr ayında respublikanın bir sıra şəhər və rayonlarında vətəndaşların qəbulu cədvəli

| 12 sentyabr 2019-cu il | 26 sentyabr 2019-cu il |
|---|---|
| 1. Quba rayonu | 1. Mingəçevir şəhəri |
| 2. Cəlilabad rayonu | 2. Ağdaş rayonu |
| 3. Qəbələ rayonu | 3. Hacıqabul rayonu |
| 4. Beyləqan rayonu | 4. Kürdəmir rayonu |
| 5. Cəbrayıl rayonu | 5. Qazax rayonu |

**Qeyd:** *qəbullar şəhər və rayonlarda saat 10:00-da başlayır.*

# 1 milyon 350 min insanın sevinci

*Əvvəli 1-ci səh.*

950 min nəfərin (600 min dövlət, 350 min qeyri-dövlət sektoru) maaşı artıb. Dövlət büdcəsindən maliyyələşən və əməkhaqları vahid taarif cədvəli ilə ödənilən 400 min nəfər işçinin isə vəzifə maaşları yüksəlib.

Bu işçilər sosial, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər və idman, kənd təsərrüfatı, ekologiya və ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat və rabitə, meliorasiya-su təsərrüfatında çalışan işçilərdir. Eyni zamanda dövlət təşkilatında çalışan, ancaq əməkhaqları vahid taarif cədvəli üzrə ödənilməyən 150 min nəfərin də maaşı artıb.

Minimium əməkhaqqının artırılması özəl sektorda çalışan və əməkhaqları vahid tarif cədvəli ilə ödənilən 350 min nəfər işçinin də maaşının artması ilə nəticələnib. Həmçinin dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin də aylıq vəzifə maaşları artırılır ki, bu işçilərin sayı 2500 nəfər təşkil edir. Bu sıraya AMEA-da, Heydər Əliyev Mərkəzi, Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, Atatürk Mərkəzi, dövlət arxivləri, Mədəniyyət Nazirliyinin Dövlət Film Fondu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatların əməkdaşlarının maaşları daxildir. Bu qurumların əməkdaşlarının aylıq vəzifə maaşları orta hesabla 40 faiz artırılıb.

Dövlət büdcəsindən maliyyələşən ümumtəhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin aylıq vəzifə maaşları sentyabrın 1-dən orta hesabla 20 faiz yüksəlib.

Prezidentin minimum əməkhaqqının artırılması ilə bağlı müvafiq sərəncamına uyğun olaraq bu ayın 1-dən dövlət qulluğunun ümumi növündə çalışan 35 min nəfər dövlət qulluqçusunun aylıq vəzifə maaşı 50 faiz artır. Dövlət qulluğunun xüsusi növündə çalışan xüsusi rütbəli əməkdaşların aylıq pul təminatı, vəzifə maaşlarının 40 faizi həcmində artıb.

Əlavə edək ki, vahid taarif cədvəli üzrə əməkhaqlarının artımı 70-100 manat çərçivəsindədir. Artımın təmin edilməsi üçün dövlət büdcəsindən illik 780 milyon, 2019-cu il (sentyabr-dekabr ayları) üzrə 245 milyon manat əlavə vəsait ayrılması təmin olunacaq.

Ümumilikdə iki sosial paketin əhatə dairəsi 4,2 milyon vətəndaşı əhatə edəcək və maliyyə tələbi bu il üçün 2,3, gələn il üçün isə 3 milyard manat təşkil edir.

Bununla da vətəndaş rifahına yönələn və inqilabi xarakter alan sosial islahatların tərkib hissəsi kimi, cari ildə ölkədə minimum əməkhaqqı məbləğinin 92,3 faiz artırılmasına, eyni zamanda, bu məbləğin yaşayış minimumunu (180 manat) 40 faiz üstələməsinə nail olunub.

Azərbaycan minimum əməkhaqqının səviyyəsinə görə tək qonşu ölkələrlə deyil, MDB ölkələri ilə müqayisədə alıcılıq qabiliyyəti indeksi üzrə ikinci yerə sahibdir. Minimum əməkhaqqının artımı əhali gəlirlərinin artımına səbəb olmaqla, əmək bazarındakı proseslərə də müsbət təsir edir, xüsusilə işçi qüvvəsinin rəqabət qabiliyyətinin artmasını, digər tərəfdən əməyin leqallaşdırılmasını stimullaşdırır.

Hələ mart ayında, Novruz bayramı münasibətilə xalqa ünvanladığı müraciətində Prezident İlham Əliyev vurğulamışdı ki, dövlət büdcəsinin gəlirləri artıb. Bu isə həmin vəsaitin sosial layihələrə yönəldilməsinə real imkanlar yaradır.

İlin 6 ayının statistik göstəricisi də deyilən fikirləri bir daha təsdiq edir. İqtisadiyyatın 2,4 faiz, qeyri-neft sektorunun 3,2 faiz, qeyri-neft sənayesinin 15,7 faiz, kənd təsərrüfatının 13 faiz, ticarət dövriyyəsinin 20 faizdən çox artması, iqtisadiyyata 6 milyard dollardan çox sərmayənin yatırılması, valyuta ehtiyatlarının rekord həddə - 49 milyard dollara yüksəlməsi bunu şərtləndirən əsas amillərdir.

Bununla yanaşı, həm vergi, həm də gömrük xidmətindən illik büdcə daxilolmaları da artıb. Altı ayda Vergilər Nazirliyi tərəfindən daxilolma 4 milyard 954 milyon manat təşkil edib. Avqustun 29-da Baş Nazir Novruz Məmmədovun sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin növbəti iclasında isə qeyd edilib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə Dövlət Gömrük Komitəsi tərəfindən dövlət büdcəsinə 446 milyon manatdan çox əlavə vəsait köçürülüb.

Bütün bunlar əlbəttə ki, Prezident İlham Əliyevin iqtisadi islahatlarının təzahürüdür. Məhz bu islahatlar nəticəsində ölkədə maliyyə sabitliyi və iqtisadi artım yaranıb, bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı, qeyri-neft sənayesi və digər sektorlarda əhəmiyyətli irəliləyiş əldə edilib. Dövlət başçısı tərəfindən ölkədə sahibkarlığa dəstək məqsədilə biznesin bütün sahələri, xüsusilə biznesə başlama, tikinti üçün icazələrin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış imkanlarının artırılması, vergilərin ödənilməsi, əmlakın qeydiyyatı, xarici ticarətin aparılması üzrə əhəmiyyətli irəliləyiş baş verib. Dövlət-biznes tərəfdaşlığında qarşılıqlı inam daha da artıb, bu münasibətlər gələcək iqtisadi inkişafın təməl prinsipinə çevrilib.

Bu göstəricilər onu deməyə əsas verir ki, bu gün iqtisadi sahədə Azərbaycan dünya miqyasında uğurla inkişaf edən ölkələr sırasındadır. Ancaq Prezident İlham Əliyev hesab edir ki, bu uğurlara baxmayaraq, iqtisadiyyatın dayanıqlığı, iqtisadi artım üçün yeni mənbələr axtarılmalıdır və artan büdcə vəsaitindən çox qənaətlə istifadə edilməlidir: "Azərbaycan dayanıqlı inkişaf yolu ilə gedir. Bir neçə il bundan əvvəl dünyanı sarsıdan və bizə də təsirsiz ötüşməyən iqtisadi-maliyyə böhranı artıq arxada qalıb. Biz bu böhrandan şərəflə çıxa bilmişik. Öz valyuta resurslarımızı qoruya bilmişik və artırmışıq. Qeyd etdiyim kimi, təkcə altı ay ərzində 4 milyard dollar əlavə valyuta ehtiyatları toplamışıq. Əlbəttə ki, bu, bizim gələcək işlərimiz üçün də yaxşı şərait yaradır".

Həqiqətən də böyük sosial paket çərçivəsində imzalanan sənədlər, müxtəlif sahələr üzrə həyata keçirilən yeniliklər ölkə vətəndaşlarını gələcəyə daha da nikbinliklə baxmağa həvəsləndirir. Ölkə iqtisadiyyatının inkişaf tempini əks etdirən rəqəmlər, statistik göstəricilər isə onu deməyə əsas verir ki, 2019-cu ilin qalan dövrü ərzində də qarşıya qoyulan bütün vəzifələr uğurla icra ediləcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Məşğulluğun təminatı sosial müdafiənin ilkin və əsas şərtidir

*Əvvəli 1-ci səh.*



Bu da onu göstərir ki, yeni iş yerlərinin açılmasının dinamikası yaxın gələcəkdə işsizliyin minimuma endirilməsinə imkan yaradacaq.

Cari il iyulun 1-i vəziyyətinə muzdla işləyənlərin sayı 1613,7 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 903,4 min nəfər, qeyri-dövlət sektorunda isə 710,3 min nəfər təşkil edib. Həmin dövrdə iqtisadiyyatın neft-qaz sektorunda 35, qeyri neft-qaz sektorunda isə 1578,7 min nəfər işləyib. Müəssisə və təşkilatlarda muzdla işləyənlərin çox hissəsi məhsul istehsalı sahələrində çalışıblar. Xidmət sahələrində isə işləyənlərin böyük əksəriyyəti təhsil sahəsində fəaliyyət göstərir.

İş yerlərinin açılması, minimum əməkhaqqının qaldırılması əhalinin əməkhaqlarının artmasına imkan yaradıb. Belə ki, cari ilin yanvar-iyun aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı ötən ilin müvafiq dövrünə nisbətən 8,2 faiz artaraq 585,2 manat təşkil edib. Ən yüksək əməkhaqqı neft-qaz sektorunda qeydə alınıb. Dövlət müəssisələrində çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 477,8, özəl müəssisələrdə isə 724,9 manat olub.

Əməkhaqlarının artması əhalinin gəlirlərinin yüksəlməsinə də imkan yaradır. Cari ilin yanvar-iyul aylarında ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin eyni dövrünə nisbətən 6,6 faiz artaraq 32218,8 milyon manat təşkil edib ki, bunun da sayəsində əhalinin hər nəfərinin orta hesabla 3259,7 manat gəlir əldə etməsinə imkan yaranıb.

Bu ilin birinci yarısında hüquqi şəxslər tərəfindən yaradılan yeni iş yerlərinin 55,3 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi sahələrinə aiddir. Qalan iş yerləri tikinti, ticarət, nəqliyyat vasitələrinin təmiri, emal sənayesi, sosial təminat, turistlərin yerləşdirilməsi və iaşə xidməti, kənd təsərrüfatı, elmi-texniki fəaliyyət və digər sahələri əhatə edir.

Əhalinin sosial təminatı daim dövlətin diqqət mərkəzindədir. Ardıcıl həyata keçirilən sosial islahatların məqsədi ölkə vətəndaşlarının rifah halının yaxşılaşdırılmasıdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən cari ilin yanvar-iyun aylarında pensiya və müavinətlərin maliyyələşdirilməsinə yönəldilmiş vəsaitin məbləği ötən ilin müvafiq dövrünə nisbətən 3,4 faiz artırılaraq 1854,8 milyon manata çatdırılmışdır. Bu vəsaitin 97,7 faizini pensiya xərcləri təşkil edir.

İlin birinci yarısında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunda 1291,3 min nəfər pensiyaçı qeydiyyatda olub ki, bu da ölkə əhalisinin 13 faizini təşkil edir. Onların 58,4 faizi yaşa, 30 faizi əlilliyə, 11,6 faizi isə ailə başçısını itirdiyinə görə dövlətdən pensiya alır. Həmin dövrdə təyin olunan aylıq pensiyaların orta məbləği keçən ilin eyni dövrü ilə müqayisədə 6 faiz artaraq 232,3 manat təşkil edib ki, bu da orta aylıq əməkhaqqının 39,7 faizinə bərabərdir.

Pensiyaçıların sosial müdafiəsini gücləndirmək məqsədilə ardıcıl islahatlar aparılır, qanunvericilikdə dəyişikliklər edilir. Bu məqsədlə dövlət başçısının 7 fevral 2019-cu il tarixli sərəncamına əsasən 2018-ci il üzrə orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq, cari il 1 yanvarın 1-də bütün növ əmək pensiyalarının sığorta hissəsi indeksləşdirilərək artırılmışdır.

Müxtəlif səbəblərdən pensiya ala bilməyənlər də unudulmur. Dövlət bu kateqoriyadan olan vətəndaşlara müəyyən qaydada sosial müavinətlər ödəyir. Belə ki, cari il iyulun 1-i vəziyyətinə görə ölkə üzrə 383,6 min nəfərə sosial müavinətlər təyin olunub. Əlilliyə görə 173 min, ailə başçısını itirməyə görə 47,1 min, sağlamlıq imkanları məhdud olduğuna görə müavinət alan 18 yaşınadək uşaqların sayı isə 66,1 min nəfər olmuşdur. Bununla yanaşı, əmək pensiyası almaq hüququ olmayan 1,6 min nəfərə kommunal, nəqliyyat və digər xidmətlər üçün də müavinət verilib.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# "Sərhədçi" İdman Olimpiya Mərkəzinin yaradılmasının 10-cu ildönümü qeyd olunub

Dövlət Sərhəd Xidmətinin (DSX) "Sərhədçi" İdman Olimpiya Mərkəzinin yaradılmasının 10-cu ildönümü münasibətilə bayram tədbiri keçirilib.









DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, Dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə çıxış edən Dövlət Sərhəd Xidməti rəisinin müavini general-leytenant Azad Ələkbərov DSX-nin rəisi general-polkovnik Elçin Quliyevin bayram təbrikini tədbir iştirakçılarına çatdırıb.

Azərbaycan Sərhəd Mühafizəsinin 100-cü ildönümü ərəfəsinə təsadüf edən tədbirdə Ulu Öndər Heydər Əliyevin milli inkişaf strategiyasının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ictimai həyatın bütün sahələrində olduğu kimi, idman sahəsində də böyük zirvələrin fəth edildiyi qeyd olunub.

Çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 2009-cu il avqustun 31-də açılışını etdiyi "Sərhədçi" İdman Olimpiya Mərkəzinin respublikamızda, o cümlədən Dövlət Sərhəd Xidmətində idmanın inkişafına yeni bir təkan verməsini, sərhədçi idmançıların İdman Olimpiya Mərkəzinin fəaliyyət göstərdiyi müddət ərzində beynəlxalq və yerli yarışlarda 1254 qızıl, 835 gümüş, 977 bürünc medal qazanmalarını xüsusi vurğulayıblar.

Tədbiridə xidmət zamanı yüksək nəticələr əldə etmiş sərhədçi idmançılar mükafatlandırılıb. Bayram tədbiri Dövlət Sərhəd Xidmətinin Zabitlər Evinin Nümunəvi Hərbi Orkestrinin konsert proqramı və idmançıların nümunəvi çıxışları ilə başa çatıb.

***"Azərbaycan"***

# Beynəlxalq aləm

## İran nüvə sazişi üzrə öhdəliklərindən geri çəkilə bilər



Avropa ölkələri sentyabrın 5-dək güzəştə getməsə, Tehran nüvə sazişi üzrə bir sıra öhdəliklərindən imtina edə bilər. Bu bəyanatla İranın xarici işlər naziri Cavad Zərif çıxış etmişdir. Onun dediyinə görə, söhbət ölkənin nüvə sazişi çərçivəsində götürdüyü öhdəliklərin azaldılmasının üçüncü mərhələsindən gedir.

Cavad Zərif Avropa ölkələrinin sanksiyalardan zərər çəkmiş ölkə kimi İrana kredit verməsinin vacibliyini vurğulamışdır: “İran avropalılarla danışıqları davam etdirir. Nüvə sazişi üzrə İranın öhdəliklərinin azaldılmasının üçüncü mərhələsi ilə əlaqədar təkliflər olmuşdur. Biz qərar qəbul etməyin son mərhələsinədyik. Avropalılar gələn cümə axşamınadək tədbir görməsələr, mayın 8-də qəbul edilmiş qərara uyğun olaraq onlara üçüncü mərhələnin reallaşdırılacağı barədə məktub göndərəcəyik”.

Əvvəllər xəbər verildiyi kimi, nüvə sazişi çərçivəsində öhdəliklərin azaldılmasının üçüncü mərhələsi üzrə tədbirlər hazırlanmışdır. Cavad Zərif Tehranın görəcəyi konkret tədbirlərin məzmununu açıqlamamışdır. Bununla belə, İran Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Abbas Musəvi bildirmişdir ki, öhdəliklərin azaldılmasının yeni mərhələsi əvvəlki iki mərhələdən daha sərt olacaq.

## Honq Konqda nümayişçilər metronun işinə mane olurlar



Honq Konqda nümayişçilər metropoliten qatarlarının hərəkətinə maneçilik törətmişlər ki, bu da ictimai nəqliyyatın işində ciddi problemlərə gətirib çıxarmışdır. Bu barədə “Alman dalğası” radiostansiyası xəbər verir.

Çinin Honq Konqa nəzarətinin gücləndirilməsinə etiraz edən fəallar yeni ümummilli tətil keçirməyə çağırmışlar. Dünən başlamış dərs ilinin ilk günündə məktəb şagirdləri, kollec və universitet tələbələri məşğələləri boykot edərək etiraz aksiyalarına qoşulmuşlar. Honq Konqda kütləvi nümayişlər üç aydır səngimir. Nümayişçilər əvvəlcə hökumətin qanunu pozanları Çin hakimiyyət orqanlarına təhvil vermək planını tənqid edirdilər. İndisə etirazçılar demokratik islahatlar keçirməyi, ümumi seçki hüququnun tətbiqini, Honq Konq administrasiyasının başçısı Kerri Lamın istefasını, həmçinin əvvəlki aksiyalarda polis zorakılığı hallarının müstəqil təhqiqini tələb edirlər. Polis əməkdaşları kütləvi aksiyaların iştirakçılarına qarşı gözyaşardıcı qaz və təzyiqli su tətbiq etmiş, etirazçıları dəyənəklə döymüşlər.

## ABŞ-da “Dorian” üzündən yüz minlərlə adam köçürülür

“Dorian” tufanının yaxınlaşması ilə əlaqədar olaraq ABŞ-ın Cənubi Karolina, Corciya və Florida ştatlarında sahilyanı zonaların sakinlərinin köçürülməsi başlamışdır. Bu barədə ştatların hakimiyyət orqanları məlumat vermişdir.

Cənubi Karolinada məcburi köçürülmə haqqında əmr 830 min nəfərə şamil olunmuşdur. Bundan başqa, sahil boyunca bütün məktəblər və dövlət müəssisələri bağlanmışdır. Proqnozlara görə, tufan bu gün Cənubi Karolina sahillərinə çata bilər. Şimali Karolina ştatında da fövqəladə vəziyyət rejimi elan edilmişdir.

Sürəti saatda 280 kilometrə çatmış “Dorian” artıq Baham adalarının şimal hissəsini vurmuşdur. Güclü külək yaşayış evlərinin damlarını uçurmuş, ağacları yıxmışdır. Leysan yağışları nəticəsində yolları və yaşayış evlərini su basmışdır.

## Azərbaycan Milli Olimpiya Komitəsinin nümayəndə heyəti Qırğızıstanda beynəlxalq forumda iştirak edir

Sentyabrın 1-də Qırğızıstanın Çolpon-Ata şəhərində MDB, Baltikyanı ölkələrin və Gürcüstanın Milli Olimpiya komitələrinin forumu öz işinə başlayıb.

Foruma adıçəkilən Milli Olimpiya komitələrinin prezidentləri, vitse-prezidentləri və digər üzvləri qatılıblar. Azərbaycanı tədbirdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un Baş katibinin müavini Azər Əliyev təmsil edirlər.

Azərbaycanın Milli Olimpiya Komitəsindən AZƏRTAC-a bildiriblər ki, 12 ölkənin Milli Olimpiya komitələrinin 50-yə yaxın nümayəndə heyəti sentyabrın 4-dək birgə fəaliyyət, tibbi təminat məsələləri, habelə idman bazaları və mərkəzlərinin istifadəsi və təlim-məşq proseslərinin həyata keçirilməsində qarşılıqlı fəaliyyət, beynəlxalq idman təşkilatları səviyyəsində əməkdaşlıq perspektivlərini müzakirə edəcəklər. Forum Beynəlxalq Olimpiya Komitəsinin “Olimpiya Həmrəyliyi” proqramı çərçivəsində keçirilir.

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən “Azərbaycan” qəzetində 10.07.2019-cu il tarixdə elan edilmiş GPON layihəsinin tətbiqi ilə əlaqədar mal-materialların satın alınması prosedurunun qalibi “Universal pro” MMC müəyyən edilmişdir.

“Bakı Telefon Rabitəsi” MMC və “Universal pro” MMC arasında 28 avqust 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən “Azərbaycan” qəzetində 05.06.2019-cu il tarixdə elan edilmiş ağac dirəklərin (6.5 metr) satın alınması prosedurunun qalibi “C.E.S.-2008” MMC müəyyən edilmişdir.

